RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI



№ 189 (8212) CÜMƏ, 30 avqust 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Kənd təsərrüfatında yüksək göstəricilər əldə edilir

## Prezident İlham Əliyev bunu aqrar sahədə aparılan islahatların nəticəsi kimi qiymətləndirib

Əldə olunan iqtisadi uğurlarda həyata keçirilən islahatlar mühüm rol oynayır. Həmin islahatlar əhatə dairəsinə görə genişdir. Kənd təsərrüfatında aparılan islahatlar daha böyük əhəmiyyət kəsb edir. Belə ki, burada həyata keçirilən islahatlar məhsul istehsalının artması ilə yanaşı, bölgədə yaşayan əhalinin məşğulluğunun və rifah halının yaxşılaşmasına müsbət təsir göstərir.

Dövlət tərəfindən aqrar sektorda çalışanlara edilən güzəştlər, fermerlərin torpaq vergisindın savayı bütün növ vergilərdən azad edilməsi, istifadə etdikləri yanacaq və sürtkü yağlarının, toxum və gübrələrin büdcədən subsidiyalaşdırılması kəndli üçün məhsul istehsalının artırılmasına geniş imkanlar yaradır. Bunun nəticəsidir ki, cari ilin 6 ayında taxıl istehsalı 40 faiz artıb. Taxılçılıqda məhsuldarlıq da kifayət qədər yüksəkdir. Belə ki, əvvəllər taxıl istehsalında məhsuldarlıq 20 sentner idisə, indi bu rəqəm 30 sentnerdən çoxdur. Elit aqrar müəssisə olan iri fermer təsərrüfatlarında məhsuldarlıq 60 sentnerdən də yüksəkdir. Bunun da səbəbi həmin təsərrüfatlarda müasir yanaşma və yüksək texnika və texnologiyalardan istifadə edilməsidir.

İlin birinci yarısında kənd təsərrüfatının digər məhsul istehsalı sahələrində də yüksək nailiyyətlər qazanılıb. Belə ki, bostan məhsulları təxminən 40 faiz, meyvə 20 faizdən çox, barama 25, tərəvəz 14 faiz artıb. Sözsüz ki, aqrar sektorda məhsul istehsalının artması kənd təsərrüfatı məhsullarının ixracını da stimullaşdırır. Cari ilin yanvar-iyun aylarında ötən ilin eyni dövrü ilə müqayisədə təzə tərəvəz ixracı 3,1, təzə meyvə 31,1, şəkər 22,3, meyvə-tərəvəz şirələri 37,9, meyvə-tərəvəz konservləri 10,5, marqarin, qida üçün yararlı digər qarışıqlar 34,5, pambıq ipliyi 50,3 faiz, tütün 1,9, pambıq lifi isə 2,9 dəfə artıb.

Ardı 4-cü səh.

# Neftçi fermerə dəstək verir

Azərbaycanda həyata keçirilən iri neft, qaz və ixrac layihələrində tərəfdaşlıq edən beynəlxalq şirkətlər ölkəmizin əhalisi üçün əlavə faydalar yaratmağı öz uğurlarının bir hissəsi hesab edirlər. Buna nail olmaq üçün əməliyyatçı - BP və çoxsaylı tərəfdaşları mühüm sosial investisiya layihələri həyata keçirirlər. Bu layihələr iqtisadi, sosial və mədəni-ictimai həyatın bir çox sahələrini əhatə edir. 2019-cu ilin birinci yarısında əməliyyatçı və onun tərəfdaşları Azərbaycanda belə sosial investisiya layihələrinə 1,4 milyon dollar xərcləmişlər.

Beləliklə, iqtisadiyyatın güclənməsinə kömək məqsədilə ölkənin bir sıra bölgələrində yerli bacarıqların yaradılmasını və sahibkarlığın inkişafını dəstəkləyən sosial investisiya layihələri davam etdirilir. Təkcə 2018-ci ildə Azərbaycanda 302 yerli şirkətlə iş aparılıb ki, bunların 249-u kiçik və orta müəssisələr, fiziki şəxslərdir. İl ərzində Azərbaycandakı birgə əməliyyatlar və layihələrə ümumilikdə 3,4 milyard dollara yaxın vəsait xərclənib. Həmçinin müəyyən edilib ki, üçüncü tərəflərin təcrübəsindən və hökumətlə əməkdaşlıqdan faydalanmaqla yerli resurslardan istifadəyə dair kompleks yanaşma ilə daha davamlı dəyər yaratmaq mümkündür. Beləliklə, BP-SOCAR Milli Resurslardan İstifadə Forumu kimi tədbirlər vasitəsilə yerli ehtiyatlardan istifadə planlarının icrasının genişləndirilməsi üçün SOCAR-la birlikdə Milli Resurslardan İstifadə üzrə İşçi Qrup yaradılıb.

Xatırladaq ki, "Azəri-Çıraq-Günəşli", "Şahdəniz" yataqlarının işlənməsi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Cənubi Qafqaz Boru Kəməri layihələrində, eləcə də bir sıra perspektiv strukturlar üzrə aparılan geoloji kəşfiyyatlarda BP və SOCAR-la bir çox şirkətlər tərəfdaşlıq edir. Onlardan bəziləri bir, bəziləri iki və daha çox layihənin iştirakçısıdır. Həmin şirkətlər bunlardır: "Şevron" (ABŞ), "Ekvinor" (Norveç), "İnpeks" (Yaponiya), "EksonMobil" (ABŞ), TPAO (Türkiyə), "LUKoyl" (Rusiya), "İtoçu" (Yaponiya), "Total" (Fransa), "Eni" (İtaliya), "Petronas" (Malayziya), OVL (Hindistan), NİKO (İran).

BP öz tərəfdaşları adından boru kəmərləri marşrutu boyunca yerləşən Yevlax, Goranboy, Samux və Şəmkir rayonlarında ilkin olaraq 100 nəfər icma üzvünü əhatə edən yeni gəlir imkanları yaradılması layihəsini həyata keçirir.

Ardı 4-cü səh.

# Ermənistanda Paşinyan iqtidarına inam azalıb

## Sosial-iqtisadi sahədə yaşanan problemlər əhalinin narazılığını daha da artırıb

Ermənistanda cərəyan edən son hadisələrin təhlili bu ölkədə iqtidara qarşı dərin bir etimadsızlığın hökm sürdüyünü üzə çıxarır. Baş nazir Nikol Paşinyan isə hər vəchlə hakimiyyətini daha da möhkəmləndirməyə çalışır. Amma ölkənin bütün sahələrdə, o cümlədən sosial sferada artan problemləri artıq Paşinyan üçün ciddi çətinliklər yaradır.

Digər tərəfdən, görünən həm də budur ki, dünənə qədər demokratiya və qanunçuluqdan dəm vuran Paşinyan vəzifəsini qoruyub saxlamaq üçün ən radikal addımlar atır. Məhz belə vəziyyətdə problemlər içində boğulan Ermənistan əhalisi yeni hökumətə də etibar etmir.

Sosial-iqtisadi sahədə yaşanan problemlərin getdikcə dərinləşməsi Ermənistanda əhalinin narazılığının əvvəlki kimi yüksək həddə olması ilə müşayiət edilir. Bunu son aylarda keçirilən çoxsaylı etiraz aksiyaları da aydın şəkildə nümayiş etdirir. Aksiyaların təhlili onların əsas etibarilə sırf sosial-iqtisadi tələblər üzərində qurulduğunu göstərir.

Baş verənlər onu deməyə əsas verir ki, bu ölkədə, cəmiyyətdə ciddi siyasi parçalanma yaranıb. Hazırda Nikol Paşinyanın ictimaiyyət və xalq arasında nüfuzu getdikcə aşağı düşməkdədir. Ermənistanın sabiq Milli Təhlükəsizlik Xidmətinin rəisi David Şahnazaryan iddia edir ki, erməni xalqının oyanışı Nikol Paşinyanın hökuməti üçün təhlükəli həddə çatıb. O qeyd edib ki, milyarder Corc Sorosun qrantından istifadə edən beynəlxalq təşkilatlar Ermənistanda baş vermiş "məxməri inqilab"ı Dağlıq Qarabağda da (Azərbaycanın işğal edilmiş ərazisində) həyata keçirməyə çalışırlar. Bu proseslərə orada keçiriləcək seçkilərin müşahidə missiyası tərəfindən rəvac veriləcək.

Ardı 4-cü səh.

# Dünyada qazlaşdırmaya görə nadir ölkə




## Təkcə bu il Bakıda və bölgələrdə onlarca yaşayış məntəqəsi qazlaşdırılacaq

Azərbaycanda həyata keçirilən genişmiqyaslı infrastruktur layihələri sırasında qazlaşdırmaya aid olanların da mühüm əhəmiyyəti var.

Məhz onların gerçəkləşməsi nəticəsində şəhərlərin, rayon mərkəzlərinin, iri kənd və qəsəbələrin mavi yanacaq problemi tam həll olunmaqla yanaşı, ən ucqar dağ kəndləri də qazla təmin edilib. Hətta sovet dönəmində qazdan istifadə etmək imkanı olmayan bir sıra yaşayış məntəqələrindəki evlərdə indi mavi alov şölələnir.

Hazırda ölkədə qazlaşdırmanın səviyyəsi 96 faizə yaxınlaşır. Bu, Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə də vurğulanıb. İnfrastruktur layihələrindən bəhs edərkən dövlət başçısı deyib: "Həm elektrik enerjisi ilə təchizat, qazlaşdırma, içməli su sahələrində, həm də suvarma layihələrinin icrası istiqamətində bir çox işlər görülüb və gözəl nəticələr var. Beləliklə, Azərbaycanda qazlaşdırmanın səviyyəsi 96 faizə yaxınlaşır. Nadir ölkələrdə bu qədər qazlaşdırma aparılır".

Ölkədə qazdan istifadə edən əhali abunəçilərinin sayı artıq xeyli vaxtdır 2 milyon nəfəri ötüb. Dünyada qazlaşdırmanın belə yüksək səviyyədə həyata keçirildiyi ölkələr tək-təkdir. Keçən il Azərbaycanda ümumi uzunluğu 3 min 193 kilometrə yaxın qaz kəmərinin quraşdırıldığını, 526,6 kilometr uzunluğunda qaz kəmərlərinin əsaslı təmir olunduğunu xatırlatmaq kifayətdir.

Ardı 2-ci səh.

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590; Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1551-VQD nömrəli, 9 aprel tarixli 1559-VQD və 1562-VQD nömrəli, 3 may tarixli 1575-VQD və 1584-VQD nömrəli qanunları) 164.1.34-cü maddəsində "idxalı və satışı" sözləri ", habelə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunmuş kənd təsərrüfatı texnikasının ehtiyat hissələrinin istehsalı, idxalı və satışı" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2019-cu il*

## "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1656-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1656-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 164.1.34-cü maddəsinə uyğun olaraq, kənd təsərrüfatı texnikasının ehtiyat hissələrinin müvafiq siyahısını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616; 2005, № 12, maddə 1099; 2006, № 5, maddə 400, № 12, maddə 1034; 2007, № 4, maddə 323, № 12, maddə 1225; 2008, № 11, maddə 972; 2009, № 3, maddə 163, № 4, maddə 226, № 10, maddə 780; 2010, № 7, maddə 610; 2011, № 7, maddə 631; 2013, № 7, maddə 805, № 11, maddə 1324; 2014, № 4, maddə 359, № 5, maddə 477, № 9, maddə 1027, № 10, maddə 1198, № 11, maddələr 1390, 1420; 2015, № 1, maddə 12, № 12, maddə 1454; 2016, № 2 (II kitab), maddələr 261, 265, № 3, maddə 450, № 5, maddə 882, № 6, maddələr 1023, 1024, 1042, 1065, № 7, maddə 1257, № 9, maddə 1464, № 11, maddə 1838, № 12, maddə 2089; 2017, № 5, maddələr 760, 811, 845, № 7, maddə 1344, № 8, maddə 1521; 2018, № 9, maddələr 1830, 1843, № 12 (I kitab), maddələr 2571, 2599) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bəndə "164.1.35-ci" sözlərindən əvvəl "164.1.34-cü," sözləri əlavə edilsin;

3.2. 1.2-1-ci bəndə "106.1.18-ci" sözlərindən sonra ", 164.1.34-cü" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 avqust 2019-cu il*

## "TurAz Qartalı-2019" təlimlərində iştirak edəcək Türkiyə Hərbi Hava Qüvvələrinin nümayəndələri ölkəmizə gəliblər

"TurAz Qartalı-2019" birgə taktiki-uçuş təlimlərində iştirak etmək üçün Türkiyə Hərbi Hava Qüvvələrinin geniş tərkibdə uçuş və mühəndis-texniki heyəti ölkəmizə gəlib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlərə hazırlıq məqsədilə hazırda heyətlərin yerləşdirilməsi, təlimin planlaşdırılması və digər təşkilati məsələlərlə əlaqədar müvafiq tədbirlər həyata keçirilir. Təlimlər sentyabrın 2-dən 16-dək keçiriləcək.

Qeyd edək ki, təlimlərdə "MiQ-29", "F-16", "Su-25", "P-235" "Kasa" təyyarələri, "Mi-35", "Mi-17", "Sikorski" UH-70, CH-47 "Çinok" və "ATAK/AH-1W" helikopterlərindən ibarət 30-dək aviasiya vasitəsi iştirak edəcək.

Təlimlərdə Azərbaycan Hərbi Hava Qüvvələri, Türkiyə Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri və Quru Qoşunlarının aviasiya vasitələrinin müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət, döyüş uzlaşması imkanlarının öyrənilməsi, axtarış-xilasetmə tədbirlərinin icrası, havadan zərbələr endirməklə yer hədəflərinin məhv edilməsi və digər tapşırıqlar yerinə yetiriləcək.

## "Eternity-2019" təlimində iştirak edəcək Türkiyə və Gürcüstan hərbi qulluqçuları Bakıya gəliblər

Sentyabrın 2-dən ölkəmizdə keçiriləcək "Eternity-2019" kompüter dəstəkli komanda-qərargah təlimində iştirak etmək üçün Azərbaycana gələn Türkiyə və Gürcüstan silahlı qüvvələrinin şəxsi heyətinin təntənəli qarşılanma mərasimi olub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qonaqlar əvvəlcə hərbi hissənin ərazisində Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyub, Ulu Öndərin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Azərbaycan, Türkiyə və Gürcüstanın dövlət bayraqları qaldırılıb və hər üç ölkənin dövlət himnləri səsləndirilib. Sentyabrın 6-dək davam edəcək təlim Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzində və səhra şəraitində keçiriləcək. Təlimə hazırlıq dövründə qonaqlar üçün bir sıra mədəni-kütləvi tədbirlərin keçirilməsi planlaşdırılır.

## Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 20 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikasının Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Baş Nazir Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin növbəti iclası keçirilib

Avqustun 29-da Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin növbəti iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclası açan Baş Nazir Novruz Məmmədov gündəlik barədə məlumat verib. Bildirib ki, iclasda "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2019-cu ilin 6 ayı ərzində fəaliyyətinin ümumi nəticələri, gömrük işinin sadələşdirilməsi ilə bağlı görülməli olan tədbirlər haqqında" və "Azərbaycan Respublikasında dövlət mühafizəsi altında olan daşınmaz tarix və mədəniyyət abidələrinin qorunma vəziyyəti, bu istiqamətdə qarşıda duran vəzifələr və görülməli tədbirlər haqqında" məsələlər müzakirə olunacaq.

Baş Nazir bu gün Azərbaycanda sahibkarlığın inkişafı, əlverişli biznes mühitinin yaradılması, şəffaf vergi sisteminin formalaşması kimi məsələlərin Prezident İlham Əliyev tərəfindən qarşıya vəzifə kimi qoyulduğunu diqqətə çatdırıb. Qeyd edib ki, 2018-2019-cu illərdə gömrük və vergi sistemində aparılan islahatlar nəticəsində məmur-sahibkar təmasları xeyli azalıb, şəffaflıq və büdcəyə daxilolmalar əhəmiyyətli dərəcədə artırılıb. "Cari ilin 6 ayı ərzində Dövlət Gömrük Komitəsi illik büdcə daxilolmaları üzrə proqnoz göstəricilərini tam həcmdə yerinə yetirib və ötən ilin müvafiq dövrü ilə müqayisədə dövlət büdcəsinə 446 milyon manatdan çox əlavə vəsait köçürüb", - deyən Baş Nazir bildirib ki, müsbət nəticələrlə yanaşı, gömrük işi sahəsində meydana gələn və həlli vacib olan bir sıra məsələlər də qalmaqdadır. Həmin məsələlərin həlli üçün müvafiq tədbirlər görülməli, bu vacib sahənin daha da inkişaf etdirilməsi istiqamətində işlər ardıcıl davam etdirilməli, gömrük prosedurları şəffaf şəraitdə daha da sadələşdirilməli və tranzit keçidi sürətləndirilməlidir. Baş Nazir Novruz Məmmədov, həmçinin əlavə edib ki, elektron xidmətlərin sayının artırılması sahibkar-məmur təmaslarının azalmasına, şəffaf və səmərəli olmasına daha da töhfə verəcək.

"Azərbaycan Respublikasında dövlət mühafizəsi altında olan daşınmaz tarix və mədəniyyət abidələrinin qorunma vəziyyəti, bu istiqamətdə qarşıda duran vəzifələr və görülməli tədbirlər haqqında" məsələyə toxunan Baş Nazir vurğulayıb ki, Azərbaycan xalqının milli mədəni irsinin qorunub saxlanılması daim dövlətin diqqət mərkəzindədir. Bu qayğının təzahürü Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı fərman və sərəncamlarda öz əksini tapıb. "2007-2019-cu illər üzrə dövlət büdcəsində nəzərdə tutulmuş əsaslı vəsait qoyuluşu hesabına 42 daşınmaz tarix və mədəniyyət abidəsində bərpa, konservasiya və yenidənqurma işləri aparılıb, abidələrin ətrafında geniş abadlıq işləri görülüb. 154 tarixi əhəmiyyətli ərazi və abidədə arxeoloji qazıntı işləri aparılıb, elmi tədqiqatların nəticələri barədə kitab və məqalələr nəşr edilib, arxeoloji materiallar tədqiq olunduqdan sonra xüsusi fond və muzeylərə təhvil verilib", - deyə Novruz Məmmədov əlavə edib. Baş Nazir mədəni irsin qorunması və gələcək nəsillərə çatdırılması məqsədilə abidələrin bərpasında Heydər Əliyev Fondunun fəaliyyətini də xüsusi qeyd edib.

Sonra Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevin, Vergilər naziri Mikayıl Cabbarovun, Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyevin və Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadənin gündəlikdəki məsələlərlə bağlı məruzələri dinlənilib.

İclasda mövzularla bağlı çıxışlar olub, müxtəlif təkliflər səsləndirilib.

İclasa yekun vuran Baş Nazir Novruz Məmmədov müzakirə olunan məsələlərin icrası ilə bağlı müvafiq tapşırıqlar verib.

## Ədliyyə naziri Abşeron rayonunda vətəndaşları qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir. Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dövlət başçısının tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, avqustun 29-da Ədliyyə naziri Fikrət Məmmədov Abşeron rayonunun Heydər Əliyev Mərkəzində Abşeron, Xızı, Siyəzən rayonlarında yaşayan və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbul zamanı ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərə baxılıb, hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerində öz həllini tapıb, digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

## Azərbaycanın Sosial Tədqiqatlar Mərkəzi ilə Türkiyənin Mərmərə Qrup Fondu arasında əməkdaşlıq protokolu imzalanıb

Avqustun 29-da Azərbaycanın Sosial Tədqiqatlar Mərkəzi ilə Türkiyənin Mərmərə Qrup Fondu arasında əməkdaşlıq protokolu imzalanıb.

AZƏRTAC xəbər verir ki, sənədi Sosial Tədqiqatlar Mərkəzinin sədri Zahid Oruc və Mərmərə Qrup Fondunun sədri Akkan Suver imzalayıblar.



Görüşdə Zahid Oruc rəhbərlik etdiyi qurumun fəaliyyəti ilə bağlı məlumat verib. O qeyd edib ki, yeni yaradılan mərkəz bu gün Türkiyənin, Rusiyanın, İsrailin, ABŞ-ın və Böyük Britaniyanın bir sıra mərkəzləri ilə əməkdaşlıq edir. Qardaş ölkələr olan Türkiyə və Azərbaycanın bir çox sahələrdə birgə uğurlu fəaliyyət göstərdiyini deyən Sosial Tədqiqatlar Mərkəzinin sədri bildirib ki, Mərmərə Qrup Fondu və bu kimi siyasi fikir mərkəzləri Azərbaycandakı müvafiq qurumlarla təcrübə mübadiləsi aparır.

Mərmərə Qrup Fondunun sədri Akkan Suver bildirib ki, Türkiyə və Azərbaycan son onilliklər ərzində region və dünya üçün vacib olan layihələr reallaşdırıb. Hər iki ölkə regionda mühüm gücə çevrilir. O vurğulayıb ki, Azərbaycan bütövlükdə Qafqaz bölgəsində sabitliyin qorunmasında həlledici təsirə malikdir.

Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım Azərbaycanda Sosial Tədqiqatlar Mərkəzinin yaradılmasının mühüm hadisə olduğunu bildirib. O deyib ki, istər Türkiyənin, istərsə də Azərbaycanın müvafiq qurumları dünyanın müxtəlif siyasi institutları və universitetlərində fəaliyyətlərini gücləndirməlidirlər. Xüsusilə də erməni yalanlarının qarşısını almaq üçün adekvat addımlar atılmalıdır.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral Azərbaycan-Türkiyə diplomatik münasibətlərindən danışıb. Diplomat qeyd edib ki, hər iki ölkə bir çox sahələrdə uğurla əməkdaşlıq edir. Hər iki qardaş ölkə daim bir-birini dəstəkləyir.

Milli Məclisin deputatı, Azərbaycanda Atatürk Mərkəzinin sədri Nizami Cəfərov deyib ki, xalqlarımızın eyni kökə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olması bu iki ölkəni həmişə bir-birinə doğma edib, sevincli, kədərli günlərdə də biri digərinin yanında olub. Ulu öndər Heydər Əliyevin bir millət, iki dövlət olaraq xarakterizə etdiyi Azərbaycan və Türkiyə dövlətləri arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatıb. Bu gün türk dünyasının daha sıx şəkildə bir araya gəlməsini şərtləndirən ən mühüm amillərdən biri də məhz Azərbaycan-Türkiyə münasibətlərinin inkişafından keçir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Türkiyə-Azərbaycan əlaqələri, eyni zamanda, bütün türk dünyası üçün mühüm əhəmiyyətə malikdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər imzalanan protokolun uğurlu olacağına əminliklərini bildiriblər.

## Dünyada qazlaşdırmaya görə nadir ölkə

### Təkcə bu il Bakıda və bölgələrdə onlarca yaşayış məntəqəsi qazlaşdırılacaq

*Əvvəli 1-ci səh.*

Ümumiyyətlə, son illərdə uzun müddət təbii qaz almayan yaşayış məntəqələrinin, həmçinin indiyədək qazlaşdırılmayan kənd və qəsəbələrin mavi yanacaqla təmin edilməsi istiqamətində böyükmiqyaslı və davamlı işlər aparılıb. Ötən il Azərbaycanın müxtəlif rayonlarında 150 yaşayış məntəqəsi qazla təmin olunub. Bunlar Ağstafa, Bərdə, Zərdab, Tovuz, Quba, Şamaxı, Göyçay, Gədəbəy, Goranboy, Oğuz, Lerik, Yardımlı və bir sıra digər rayonların kənd və qəsəbələridir. Bu yaşayış məntəqələri arasında elələri var ki, indiyədək heç vaxt qazdan istifadə etmək imkanları olmayıb. Məsələn, Neftçala rayonunun artıq qazla təmin olunmuş Cəngan və Ərəbqardaşbəyli, Qax rayonunun Meşəbaş kəndləri. Keçən il, eləcə də Yevlax rayonunun Rüstəmli və Qaraməmmədli kəndlərinə təbii qaz verilib. Rüstəmli və Qaraməmmədli iri kəndlərdir. Onların qazlaşdırılması ilə ümumilikdə 537 fərdi evdə mavi alov şöləlirib. Bu sevinci Saatlı rayonunun Mərzili kəndinin sakinləri də yaşayıblar. Burada 223 fərdi ev qazlaşdırılıb. Ağdam, Ağcabədi və Sabirabad rayonlarında məcburi köçkünlərin məskunlaşdığı 4 qəsəbə də təbii qazla təmin edilib.

Bu gün dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşən, Babadağ və Niyaldağ silsilələri ilə əhatə olunmuş Lahıc qəsəbəsinin sakinləri də qazdan istifadə edirlər. Bu, son illərdə ölkədə qazlaşdırma sahəsində əldə olunmuş mühüm nailiyyətlərə aydın misaldır. İsmayıllı rayonunun bu xətt boyunca yerləşən digər kəndlərində də qazlaşdırma həyata keçirilib. Keçən il Qaraqaya, Gəndob, Namazgah kəndləri də qazlaşdırılıb.

Ardıcıl həyata keçirilən layihələr nəticəsində indiyədək respublikanın Gəncə, Mingəçevir, Naftalan, Sumqayıt və Şirvan şəhərlərində qazlaşdırma tam başa çatıb. Qazlaşdırmanın 100 faiz səviyyəsinə çatdığı rayonlar isə Abşeron, Ağdam, Ağstafa, Balakən, Beyləqan, Biləsuvar, Füzuli, Hacıqabul, Qazax və Ağsudur. Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndindəki evlərin hamısına qaz xətləri çəkilib. Yevlax, Bərdə, Kürdəmir, Tərtər, Ucar, Goranboy və Zərdab rayonlarında yaşayış məntəqələrinin sayına görə qazlaşdırmanın səviyyəsi 90 faizi ötüb. Bakıda 22 yaşayış məntəqəsinin qazlaşdırılması tədbirləri davam etdirilir.

Bölgələrdə də bu istiqamətdə ardıcıl iş aparılır. Bu il 33 şəhər və rayonda 13 qəsəbə və 23 kəndin, eləcə də 26 yeni yaşayış massivinin qazlaşdırılması nəzərdə tutulub. Onlardan 21 məntəqəyə qaz artıq verilib, 34 yerdə isə işlər tam başa çatdırılıb, istismara başlanacaq.

Ölkədə qazlaşdırma işləri regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası çərçivəsində də davam etdirilir. Hazırda çətin relyefə malik ərazilərin qazlaşdırılması qarşıda duran əsas hədəflərdəndir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Nəcib əməllər və yüksək humanizm nümunəsi

**Birinci vitse-prezident Mehriban Əliyevanın siyasi-ictimai fəaliyyəti yalnız ölkəmizdə deyil, bütün dünyada Azərbaycan qadınının müsbət obrazının formalaşmasında müstəsna rola malikdir. Onun təşəbbüsü ilə respublikamızda sosial, səhiyyə, elm və təhsil, mədəniyyət və digər sahələrdə həyata keçirilən tədbirlər xalqımız tərəfindən böyük rəğbətlə qarşılanır. Bu tədbirlər həm də dövlət siyasətinin daha böyük uğurlar qazanmasında böyük rol oynayır.**

**Bununla bağlı Milli Məclisin deputatlarının da fikirlərini öyrəndik.**



## Ümidlərin gerçəkləşən ünvanı

**Bahar MURADOVA,**
*Milli Məclis Sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü:*

- Bugünkü Azərbaycan qadını haqda danışarkən ilk növbədə Şərqə məxsus milli mənəvi və əxlaqi dəyərlərlə Qərbin mütərəqqi yeniliklərinin uğurlu vəhdətini özündə birləşdirən müasir qadın obrazı təsəvvürə və göz önünə gəlir. Artıq kütlə şüurunda özünə min illərlə kök salmış, qadınların hüquqlarından daha çox vəzifələri barədə düşüncələrə yol açan yanaşmaları özündə ehtiva edən stereotiplər sürətlə aradan qalxmaqdadır. Müstəqilliyimizin bərpasının bizə qazandırdığı əsas nailiyyətlərdən biri qadınlarımızın ictimai fəallığının və siyasi çəkisinin artması, dövlət və cəmiyyət həyatına daha geniş nüfuz etməsi, hüquqi baxımdan daha güclü mövqelər əldə etməsidir.

Tarixin yerini və taleyini müəyyən etdiyi ən görkəmli şəxsiyyətlərdən biri, klassik örnəklərimizin layiqli davamçısı, müasir Azərbaycan qadınlarının ən parlaq nümayəndəsi Mehriban xanım Əliyevadır.

Bu gün onun haqqında hər kəs, bir də hər kəsdən daha çox gördüyü işlər, həyata keçirdiyi çoxsaylı layihələr danışır. Xeyirxahlığı, humanistliyi ilə yanaşı, zərifliyi və tükənməz gücündən... Vətənpərvər və milli olduğu qədər bəşəri və insansevər olmasından... Ehtiyacı olanlara diqqət və qayğısı ilə yanaşı, təhsilə, sağlamlığa, ətraf mühitin qorunmasına verdiyi önəm barədə...

Milli-mənəvi dəyərlərimizin, zəngin mədəni irsimizin qorunmasına, inkişaf etdirilməsinə və tanıdılmasına yönəlmiş fəaliyyəti ilə yanaşı, dünya ölkələri və xalqlarının mədəniyyətinə göstərdiyi xidmətlər haqda... Tolerantlığın və multikulturalizmin qanunlar və siyasi hədəflərə yönəlmiş konsepsiyalarda nəzərdə tutulmuş vəzifələr toplusu halında deyil, bir yaşam tərzi, bir ictimai şüur formasında dərk və qəbul edilməsinə hesablanmış layihələrindən...

Eləcə də dini-etnik bölücülüyə, müharibələrə, insan qırğınına, ayrı-seçkiliyin bütün formalarına qarşı səmərəli və səfərbəredici fəaliyyətindən... Milli və beynəlxalq miqyasda təhsil, səhiyyə, idmana qayğısından... Ailə, qadın və uşaq problemlərinin məişət səviyyəsində deyil, milli və beynəlxalq miqyasda müəyyənləşdirdiyimiz hədəf və öhdəliklərimizə uyğun şəkildə, ictimai-siyasi və iqtisadi parametrlərin balansı gözlənilməklə həllinə çalışmasından... Qarabağ probleminə dair həqiqətlərin beynəlxalq miqyasda çatdırılmasının ən təsirli formalarının müəyyənləşdirilməsi və səmərəli istifadəsinə yönəlmiş yorulmaz fəaliyyəti barədə...

Cəmiyyətin bütün təbəqələrinin, xüsusilə həssas qrupların ictimai və sosial maraqlarının nəzərə alınmasına, mövcud problemlərinin həllinə yönəlmiş qanunverici əsasların və yeni icra mexanizmlərinin yaradılmasına dair təşəbbüslərindən... Mülki və cinayət qanunvericiliyi ilə problemi, üzərində məhkəmə hökmü olanlara qarşı humanizm və ədalət prizmasından yanaşmaların bərqərar olması, xəta, hüquqa zidd əməllər törətmiş şəxsləri cəmiyyətə qazandırmaq üçün davamlı təşəbbüslərinin real nəticələrindən... Mədəniyyətlər və dinlər, o cümlədən sivilizasiyalararası dialoqun inkişafına verdiyi töhfələrdən...

Bütün xırdalıqlarına qədər sadalanması mümkün olmayan bu fəaliyyətləri haqda "həyat kitabını" o öz təşəbbüsü ilə yazmaqdadır. Bu kitabın digər səhifələrində o öz valideynlərinin, layiqli davamçısı kimi onları varlığı ilə fəxr etməyə vadar edən layiqli övlad kimi görünür. Eyni zamanda, Azərbaycana üç gözəl övlad, eləcə də dövləti və milli maraqları naminə bütün imkanlarını sərf etməyi özləri üçün bir vəzifə bilən əsl vətəndaş və insan bəxş edən bir ana kimi...

Onun bir qadın olaraq ailə dəyərlərini yüksək tutması, öz həyat yoldaşına bütün hallarda dayaq olmaqla yanaşı, taleyin və zamanın üzərinə qoyduğu statusu nəinki ləyaqətlə daşıması, eləcə də ona yeni məna və məzmun gətirməsi bütün dünya ölkələri birinci xanımları üçün əvəzsiz örnəkdir.

Bütün bu keyfiyyətlərin məcmusunu xarakterizə edən əsas cəhət isə, əlbəttə ki, müstəqil Azərbaycan dövlətinin yaradıcısı, onun ideya əsaslarının proqram sənədlərində və gündəlik fəaliyyətində əksini tapdığı Yeni Azərbaycan Partiyasının qurucusu, Ümummilli Lider Heydər Əliyevin ideyalarının reallaşmasında cənab Prezident İlham Əliyevin ən yaxın silahdaşı olmasıdır.

O, YAP-ın sədr müavini, Heydər Əliyev Fondunun prezidenti və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti kimi "özü tərəfindən dərk edilmiş" və rəsmən üzərinə qoyulmuş xalqın və dövlətin taleyinə cavabdehlik "məsuliyyətini" ləyaqətlə daşımaqdadır.

Bütün bunların rəsmi təsdiqi isə özünü Azərbaycanın, aparıcı dünya ölkələrinin və mötəbər beynəlxalq təşkilatların çoxsaylı titullarına, yüksək mükafatlarına, orden və medallarına layiq olmasında göstərir.

Azərbaycan qadını bir şəxsin timsalında bu qədər çoxşaxəli, konkret nəticələri ilə nəzərə çarpan və elə bununla da dünyanın diqqətini öz ölkəsinə yönəltməyə yalnız Mehriban Əliyevanın sayəsində nail ola bilmişdir. Özü də bu, yalnız Azərbaycanın deyil, dünya qadınlarının məhz onun timsalında qazandığı nailiyyətdir.

Mehriban xanım dünyada hamıya və hər kəsə sübut elədi ki, ən çətin və problemli sahələrdə uğur qazanmaq insanların rəğbətindən və sevgisindən elə onların mənafeyi üçün istifadə etməyi öz fəaliyyətinin əsas məzmununa çevirməkdən, humanizm, mərhəmət və mənəviyyata söykənən mövqe sərgiləməkdən keçir. Özü də o halda ki, qazanılan bu uğurlar yenə də insana, insanlığa xidmət eləsin.

O bunu bacardı! Bir azərbaycanlı kimi bacardı. Azərbaycan qadını adına, xalqımız və dövlətimiz adına bacardı. Öz zəhməti, qeyri-adi səfərbəredici gücü, möhkəm xarakteri, prinsipiallığı və bəlli hədəflərə doğru məqsədyönlü fəaliyyətilə... Yeni bir standartda, yeni bir siyasətçi tipi, "mükəmməl qadın" obrazında bacardı!!!

## Əsl vətəndaşlıq mövqeyi

**Rafiq MƏMMƏDHƏSƏNOV,**
*Milli Məclisin deputatı, tibb elmləri doktoru, professor:*

- Hər birimizin qarşısında duran vəzifələrdən ən önəmlisi daim vətəndaşlıq mövqeyindən çıxış etmək, Azərbaycanın daha da inkişafı üçün çalışmaqdır. Bu şərəfli vəzifələrin reallaşması naminə səy göstərmək, əlindən gələni etmək hər bir azərbaycanlının borcudur. Bu yolda öz fəaliyyəti və əməlləri ilə nümunələr yaradan Birinci vitse-prezident xanım Mehriban Əliyevanın həyata keçirdiyi çoxşaxəli fəaliyyət hər bir vətəndaş tərəfindən dərin məmnuniyyət hissi ilə qarşılanır.

Respublikamızın Birinci vitse-prezidenti olmaqla yanaşı, Heydər Əliyev Fonduna, Azərbaycan Mədəniyyətinin Dostları Fonduna, Gimnastika Federasiyasına rəhbərlik edən Mehriban xanım Əliyevanın fəaliyyəti çoxşaxəlidir. Bu fəaliyyət hər addımda Ulu Öndər Heydər Əliyevin xalqımızın işıqlı gələcəyinə yönəlmiş ideallarının reallaşmasına, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi, sosial-iqtisadi, mədəni-humanitar kursun dəstəklənməsinə və uğur qazanmasına xidmət edir.

Azərbaycan və eləcə də dünya ictimaiyyəti Mehriban Əliyevanı ilk növbədə böyük xeyriyyəçi, qayğıkeş insan kimi tanıyır. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə sosial qayğıya ehtiyacı olan insanların, qaçqınların və məcburi köçkünlərin, talassemiya və diabet xəstəliklərindən əziyyət çəkən vətəndaşların dəstəklənməsinə yönəlmiş müxtəlif proqramlar məhz bu məqsədə xidmət edir. Bu xeyriyyəçilik təbdirləri nəticəsində yüzlərlə insan normal sağlam həyata dönüb.









2004-cü ildən sonra ölkəmizin dörd bir yanında geniş vüsət alan məktəb və xəstəxana tikintisində, müxtəlif xəstəliklərdən əzab çəkən uşaqlar üçün xüsusi tibb müəssisələrinin yaradılmasında, uşaq evlərinin, internat məktəblərinin, uşaq bağçalarının yenidən qurulmasında, tarixi və dini abidələrin bərpasında Mehriban xanım Əliyevanın əzmkarlığını, təhsilimizin inkişafına, milli genofondumuzun qorunmasına xidmət edən əsl vətəndaşlıq missiyasını görürük.

Mehriban xanımın xalq musiqisinin, bənzərsiz muğamlarımızın inkişafındakı xidmətləri günümüzlə səsləşən addımlardır. O, ilk Azərbaycan qadını olaraq UNESKO kimi mötəbər beynəlxalq təşkilatın şifahi ənənələr və musiqi ənənələri sahəsində xoşməramlı səfiri adına layiq görülüb.

Məhz Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən tədbirlərlə Azərbaycan həqiqətləri uğurla dünyaya çatdırılır. Bütün bunlar erməni yalanlarının sistemli şəkildə ifşa olunmasına, Xocalı soyqırımının tanınmasına, işğal olunmuş torpaqlarımızın azad edilməsi istiqamətində Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun uğurla reallaşmasına dəstək verir.

2005-2017-ci illərdə Milli Məclisin deputatı kimi də Mehriban Əliyeva çox böyük işlər görüb. Lakin təkcə təmsil etdiyi dairədə deyil, bütün ölkə üzrə sosial-iqtisadi problemlərin yoluna qoyulmasında çox böyük addımlar atıb. Seçicilərlə daim təmasda olub və onun deputat kimi əsas fəaliyyəti seçicilərin problemlərinin həllinə yönəlib. Eyni zamanda, Mehriban Əliyevanın parlamentdə dostluq qrupunun sədri kimi fəaliyyəti nəticəsində müxtəlif ölkələrdə qazandığımız dostların sayı artıb.

Mehriban Əliyevanın mükafatları çoxdur. Ən ali mükafatı isə respublikamızda mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və I Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə Prezident İlham Əliyevin 29 iyun 2015-ci il tarixli sərəncamı ilə verilən "Heydər Əliyev" ordenidir. Bu, Azərbaycan dövlətinin Mehriban xanım Əliyevanın fəaliyyətinə və xalqımız qarşısındakı xidmətlərinə verdiyi yüksək qiymətin göstəricisidir.

Vətənə məhz bu cür layiqli xidmət missiyasının nəticəsində iki il əvvəl Mehriban Əliyeva Birinci vitse-prezident vəzifəsinə təyin olundu. Bu gün Mehriban Əliyeva özünə xas olan yüksək işgüzar və mənəvi keyfiyyətlər, dərin təşkilatçılıq və idarəçilik qabiliyyəti ilə ona həvalə edilən bu vəzifəni layiqincə daşıyır, ölkədə həyata keçirilən siyasi kursun uğur qazanmasına mühüm töhfələr verir.

## Sərhəd tanımayan xoş məram

**Novruzəli ASLANOV,**
*Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti:*

- "Həyatda hər bir kəsin yerini və taleyini tarix müəyyən edir. Odur ki, nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir. Bu kitabda hər bir kəs özünü şəxsi həyatının və dünyanın qurub-yaradıcısı, yaxud dağıdıcısı kimi təcəssüm etdirir. Kimsənsə, elə də olmalısan - bax budur bizim həyatımız. Ona görə də özgələrin rollarını və obrazlarını gərək öz üzərinə götürməyəsən. Çünki sən də, dünyada yerin də yeganə və bənzərsizdir".

Həqiqətən, özünün də vurğuladığı kimi, o, bu dünyada yeri, rolu, üzərinə götürdüyü nəcib missiyalarla yeganə və bənzərsizdir. O, təkcə ölkə daxilində yox, bütün dünya miqyasında məşğul olduğu sahələr üzrə yüksək standart müəyyənləşdirən bir xanımdır.

Deyirlər, insan yalnız bu həyatdakı əməlləri, xeyirxahlığı, gördüyü savab işlərlə əbədiyaşar olur. Yaddaşlara yazılır, hafizələrdə iz buraxır, adını tarixə qızıl hərflərlə yazdırır. Elə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva da Tanrının bu dünyaya ərməğan etdiyi seçilmiş insanlardandır.

Mehriban Əliyeva bu gün çarəsiz insanların həyatda durmaqlarına şans verəni, kimsəsiz, valideyn himayəsindən məhrum uşaqların Mənəvi Anası, dərdli şəhid analarının dayağı, qaçqın və məcburi köçkünlərin yurd həsrətinin təsəlliverənidir. Harada yardıma möhtac biri varsa, o, Mehriban xanımın pənahındadır. Birinci xanım xeyirxah qəlbinin səsi ilə bütün qüvvəsini, zamanını təmənnasız olaraq insanların rifahı, xoşbəxt yaşamı uğrunda sərf edir. Təsadüfi deyil ki, bu gün Azərbaycan Prezidentindən sonra insanların ən çox müraciət etdiyi insan da məhz Mehriban Əliyevadır. Bu, bir daha insanların Birinci vitse-prezidentə olan tükənməz sevgisinin, etibarının, inamının göstəricisidir.

"Uşaqlara yaxşılıq nə qədər çox olsa, yenə azdır" devizini rəhbər tutan Mehriban Əliyeva hər zaman valideyn himayəsindən məhrum uşaqların taleyi ilə maraqlanır, onların gələcək həyatda uğur qazanmaları üçün əlindən gələn hər şeyi edir. Xəstə, xüsusi qayğıya ehtiyacı olan, fiziki, əqli qüsurlu, daun, autizmli uşaqlara maddi və mənəvi qayğı göstərir, onlar üçün yaradılmış mərkəzlərin qonağı olur, əldə etdikləri nailiyyətlərə, sağlamlıqlarında müşahidə olunan irəliləyişlərə sevinir. Amma onu da demək yerinə düşər ki, həmin ünvanlardakı çöhrəsi solmuş, xəstə, çarəsiz uşaqların ağrı-acısını paylaşmaq, bir az da olsa azaltmaq, dərdlərinə şərik olmaq üçün dağ boyda ürəyə sahib olmaq lazımdır...

Mehriban Əliyevanın nəciblik və insanpərvərliyi, yüksək mənəvi keyfiyyətləri və tükənməyən yaxşılıq etmək istəyi, hədsiz xeyirxahlıq və həssaslığı onun şəxsiyyətinin zənginliyinin göstəricisidir. Təsadüfi deyil ki, o, ana və uşaq sağlamlığının qorunması işindəki müstəsna xidmətlərinə görə Ümumdünya Səhiyyə Təşkilatının xüsusi mükafatına, genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideallarına xidmət sahəsindəki yüksək nailiyyətlərinə görə "Qızıl ürək" beynəlxalq mükafatına layiq görülüb.

2004-cü ildə Heydər Əliyev Fondunun fəaliyyətə başlaması ilə daim insanlara mərhəmət, şəfqət bəxş edən birinci xanım, tarixən Azərbaycanda var olan xeyriyyəçilik ənənələrinin yenidən dirçəlməsini və davam etdirilməsini təmin etdi. Bu gün ölkəmizdə elə bir sahə yoxdur ki, Mehriban xanımın rəhbərliyi altında fond o sahəyə yardım, kömək etməsin. Elə buna görədir ki, qısa zaman ərzində Heydər Əliyev Fondu yardıma ehtiyacı olan bütün insanların ümid ünvanına çevrildi.

Mehriban xanım Əliyeva Milli Məclisin deputatı kimi fəaliyyət göstərdiyi müddətdə də digər deputat həmkarlarına öz davranışı, xeyirxah missiyası ilə örnək, təkrarlanması vacib nümunə göstərdi. Məhz Mehriban xanımın təşəbbüsü ilə 4 (2007, 2009, 2013 və 2016-cı illərdə) amnistiya aktı qəbul edildi. Hər dəfə on minlərlə insana şamil edilən bu amnistiyalar insanpərvərliyin, vətəndaş həmrəyliyinin bariz göstəricisi idi.

Mehriban Əliyeva məramı xoş və təkrarolunmaz şəxsiyyətdir. O, UNESKO və İSESKO-nun xoşməramlı səfiridir və dünyada ikinci belə şəxsiyyət yoxdur ki, bu iki mötəbər təşkilatın üzvü olsun.

Mehriban xanımın humanistliyi, xeyirxahlığı heç bir çərçivə, sərhəd tanımır. Dünyanın harasında uşaqlara məktəb lazımdırsa, tikdirir, xəstələrə dayaq durur, dağılan tarixi, dini abidələri bərpa etdirir, gücü çatdığı qədər dünyanın, insanlığın var olması üçün əzmlə çalışır. Həmçinin xalqının haqq səsinin dünyaya çatdırılmasında, Azərbaycanın milli-mənəvi dəyərlərinin təbliği istiqamətində həyata keçirdiyi layihələr, təşkil etdiyi konfranslarla vətənpərvərlik missiyasını layiqincə yerinə yetirir.

2017-ci ildə cənab Prezident İlham Əliyevin sərəncamı ilə Birinci vitse-prezident təyin olunması isə Mehriban xanımın həyatında yeni bir dönəm başlatdı.

Birinci xanımın ölkənin ictimai həyatında göstərdiyi xidmətlərin müstəsnalığı Prezident İlham Əliyevin fikirlərində də öz əksini tapır: *"Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır... Çox peşəkar, bilikli, təcrübəli, prinsipial bir insandır, eyni zamanda çox xeyirxah bir insandır və təsadüfi deyil ki, Azərbaycan xalqı ona çox böyük rəğbətlə, sevgi ilə yanaşır. Bütün bu sadaladığım amilləri nəzərə alaraq mən bu qərara gəldim. Bu gün Mehriban Əliyevanın həyatında yeni bir dövr başlayır və əminəm ki, ölkəmizin inkişafında bundan sonra da öz dəyərli töhfəsini verəcək".*

Bəli, Mehriban Əliyeva öz əməlləri ilə insanların dərin rəğbətini qazanıb, Heydər Əliyev Fondu isə haqlı olaraq mərhəmət ünvanı kimi tanınır. İctimai və siyasi fəaliyyətlə yanaşı yaradıcılıq sahəsinə bağlı olduğumdan bütün bunları bəstələdiyim musiqilərdə canlandırmışam. Bu baxımdan hələ illər öncə bəstələdiyim "Öndər Fondu", "Mehriban insan" kimi mahnılar məhz cəmiyyətin sosial sifarişi olaraq ərsəyə gəlib.

Mehriban xanım insanların nümunə götürəcəyi, bəhrələnəcəyi etalondur. Hər birimiz Mehriban Əliyevaya seçim etdiyi bu müqəddəs və şərəfli yolda uğurlar arzulayır, cansağlığı diləyirik.

## Xalqın adamı

**Cavid OSMANOV,**
*Milli Məclisin deputatı, YAP Ağdaş rayon təşkilatının sədri:*

- Azərbaycan qadınları həmişə cəmiyyətdə, xalqın siyasi və ictimai həyatında fəallıq göstərib. Bu gün də qadınlar müxtəlif sferalardakı fəaliyyətləri ilə ölkəmizdə gedən inkişaf proseslərinə layiqli töhfələr verirlər. Birinci vitse-prezident Mehriban Əliyevanın timsalında isə Azərbaycan qadınının cəmiyyət həyatındakı layiqli yeri, nüfuzu, dövlətə və xalqa xidmət missiyası və işgüzarlığı daha yaxından görünür.

Ümumiyyətlə, Mehriban Əliyevanın fəaliyyətindən söz açarkən ilk yada düşən onun insanlara təmənnasız yaxşılığı, qayğısı, mərhəməti, ehtiyacı olanlara əl tutması və xeyriyyəçiliyidir. Bu yüksək insani keyfiyyətlər isə xalqımızın milli-mənəvi və mental-əxlaqi dəyərlər sisteminin mühüm elementləridir. Mehriban Əliyeva həmişə öz diqqətini əhalinin sosial baxımdan ehtiyacı olan təbəqələrinə, xəstə və valideyn himayəsindən məhrum olmuş uşaqlara kömək göstərilməsinə yönəldir. Eyni zamanda, xalqımızın genetik fondunun qorunub saxlanmasına cəmiyyətin diqqətini cəlb etməyi özünün vətəndaşlıq borcu hesab edir, talassemiya və diabet xəstəliklərindən əziyyət çəkən uşaqların dəstəklənməsinə yönəlmiş müxtəlif proqramların həyata keçirilməsini dəstəkləyir. Təsadüfi deyil ki, 2004-cü ildə yaranan və Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu müxtəlif sosial proqramlar həyata keçirən xeyirxahlıq ünvanı kimi tanınır. Dahi liderin yaradıcılıq irsinin təbliği və öyrənilməsi ilə yanaşı, bu fond xeyriyyəçiliyi, uşaqlara kömək etməyi, müxtəlif humanitar aksiyalar keçirməyi öz fəaliyyətinin prioritet istiqamətlərindən hesab edir.

Bu yaxınlarda xalqımız müqəddəs Qurban bayramını qeyd etdi. Hər yerdə qurbanlar kəsildi, dualar oxundu. Birinci vitse-prezident bu baryamda da aztəminatlı ailələri unutmadı. Onun təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən 70 minə yaxın aztəminatlı ailəyə qurban payları verildi. Bu da bir daha təsdiq etdi ki, sosial-iqtisadi inkişafa yönəlik dövlət proqramlarına dəstək verən Heydər Əliyev Fondu aztəminatlı ailələri, xüsusi qayğıya ehtiyacı olan şəxsləri daim diqqətdə saxlayır, müxtəlif bayramlar və əlamətdar günləri onlarla birlikdə qeyd edir.

Heydər Əliyev ideyaları ilə silahlanmış, hər zaman peşəkarlığı, işgüzarlığı və prinsipiallığı ilə seçilən Mehriban Əliyevanı xarakterizə edən digər mühüm göstəricilərdən biri milli-mənəvi dəyərlərimizin qorunmasına və dünyada təbliğinə böyük önəm verməsidir. İstər Heydər Əliyev Fondunun prezidenti, istər Azərbaycan Mədəniyyətinin Dostları Fondunun rəhbəri kimi fəaliyyətinin təhlili göstərir ki, milli mədəniyyətimizin qorunması və dünyada təbliği Mehriban Əliyevanın xalqa xidmət missiyasının əsas istiqamətlərindəndir. Belə ki, bunlar son nəticədə nəcib məqsədə - Azərbaycanın dünyada tanıdılmasına xidmət edir. Ötən illər ərzində neçə-neçə tarixi-mədəniyyət abidələrinin yenidən qurulması, muğam musiqi müsabiqələrinin və dünya şöhrətli musiqiçilərin yubileylərinə həsr edilmiş beynəlxalq festivalların keçirilməsi, xarici ölkələrdə müxtəlif sərgilərin təşkili bu ali məramın intişarına yönəlib.

Mehriban Əliyeva həm də Yeni Azərbaycan Partiyası sədrinin müavinidir. Öz fəaliyyəti ilə partiyanın möhkəmlənməsi, sıralarının artması üçün çox böyük əmək sərf edir. 2005, 2010 və 2015-ci illərdə Milli Məclisin deputatı seçilən Mehriban Əliyevanın deputatlıq fəaliyyəti isə parlament tariximizin şərəfli səhifəsidir. Seçicilərə diqqət və qayğısı, təmsil etdiyi ərazilərin sosial problemlərinin həlli yönündə gördüyü misilsiz işlərlə əsl millət vəkilliyinin nümunəsini yaradan Mehriban Əliyeva Milli Məclisin müzakirəsinə təqdim etdiyi layihələrlə qanunvericiliyimizin təkmilləşməsinə böyük töhfələr verib. Cəmiyyət üçün ciddi təhlükə törətməyən minlərlə insanın onun təşəbbüskarı olduğu amnistiya aktı layihələri əsasında həbs yerlərindən buraxılması Mehriban Əliyevanın deputatlıq fəaliyyətinin xoş məqamı kimi hər zaman böyük rəğbətlə xatırlanacaq.

Mehriban Əliyeva bütün cəhətləri ilə xalqın adamıdır, vətəndaşlarımızın birmənalı dəstəyini qazanmış dövlət xadimidir. Ona görə onun 2017-ci ildə ölkəmizin Birinci vitse-prezidenti vəzifəsinə təyin olunması xalqın ürəyindən xəbər verən hadisə kimi tarixə düşdü. Mehriban Əliyevanın Birinci vitse-prezident - Prezident İlham Əliyevin ən yaxın silahdaşı kimi dövlətimizə və xalqımıza layiqincə xidmət edəcəyi, Azərbaycanın daha da çiçəklənməsinə layiqli töhfələrini verəcəyi, xüsusən yenə də sosial qayğıya ehtiyacı olan insanların yanında olacağı fəaliyyətə başladığı ilk günlərdən aydın idi. Təsadüfi deyil ki, Mehriban Əliyevanın Birinci vitse-prezident kimi ilk diqqət yetirdiyi məsələlər Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin yeni mənzillərə köçürülməsi, 2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi, əlilliyi olan şəxslərin sosial müdafiəsi, reabilitasiyası və cəmiyyətə inteqrasiya məsələləri olmuşdu. Bir neçə gün əvvəl isə Ali Hərbi Məktəbin bir qrup məzunu ilə şəhidlərin xatirəsini yad etməsi isə bir daha göstərdi ki, Mehriban Əliyeva vətənpərvər xanım kimi daim xalqın içindədir.

Bütövlükdə Mehriban Əliyevanın Birinci vitse-prezident kimi fəaliyyəti göstərir ki, görülən bütün işlər, atılan addımlar yalnız bir məqsədə - Prezident İlham Əliyevin inkişaf strategiyasının uğurla reallaşmasına, Azərbaycanın beynəlxalq nüfuzunun daha da yüksəlməsinə xidmət edir. Bu mənada Mehriban Əliyevanın fəaliyyəti Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətti uğurla və layiqincə tamamlayır.

***Rəşad BAXŞƏLİYEV,***
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Kənd təsərrüfatında yüksək göstəricilər əldə edilir

## Prezident İlham Əliyev bunu aqrar sahədə aparılan islahatların nəticəsi kimi qiymətləndirib

*Əvvəli 1-ci səh.*



Prezident İlham Əliyev cari il iyulun 31-də sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə aqrar sektorda həyata keçirilən islahatları yüksək dəyərləndirərək, bu sahənin ölkə üçün əhəmiyyətini də vurğulayaraq demişdir: "Kənd təsərrüfatında bu il rekord göstərici əldə edilib. Qeyd etdiyim kimi, bu, aparılan islahatlar nəticəsində mümkün olub. Müxtəlif istiqamətli addımlar kənd təsərrüfatında canlanmaya gətirib çıxarıb. Əlbəttə ki, dövlət dəstəyi hər zaman olduğu kimi, bu il də göstərilir, bundan sonra da göstəriləcək. Bu istiqamətdə atılan addımlar artıq real nəticələr verir və kənd təsərrüfatı uğurla inkişaf edir... Kənd təsərrüfatı hər bir ölkə üçün önəmli sahədir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi bizim üçün əsas vəzifədir, eyni zamanda, biz öz ixrac imkanlarımızı da genişləndiririk".

Məlum olduğu kimi, ərzaq təhlükəsizliyində əsas faktorlardan biri əhalinin un məmulatları ilə təminatıdır. Bu məqsədlə taxılçılığın stimullaşdırılması üçün həmin sahə ilə məşğul olan fermerlərə güzəştlər edilib. Belə qayğı sayəsində taxılçılığa meyil ildən-ilə artır. Bunun nəticəsidir ki, cari ildə 1 milyon 12 min hektarda taxıl əkini həyata keçirilib. Həmin sahənin 670 hektarında buğda, 342 min hektarında isə arpa əkilib. Qeyd etdiyimiz kimi, bu sahədə məhsuldarlıq yüksək olub. Üstəlik, taxıl itkisinə yol verməmək üçün müasir texnikadan istifadə edilərək biçin müddəti 20 gün tez başa çatdırılıb. Beləliklə, ölkənin ərzaq təhlükəsizliyinə fermerlər tərəfindən mühüm töhfə verilib.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-iyul ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 4 milyard 453,7 milyon manat təşkil edib. Bunun da 2 milyard 230,4 milyon manatı heyvandarlıq, 2 milyard 223,3 milyon manatı isə bitkiçilik məhsullarının payına düşüb. Ötən ilin eyni dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalı 6,3 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,1, bitkiçilik məhsulları üzrə isə 9,5 faiz artıb.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-iyul aylarında diri çəkidə ət istehsalı 3, süd istehsalı 1,7, yumurta istehsalı 6,9, yun istehsalı 1,5 faiz artmışdır. Bundan başqa, ölkədə 643,2 ton barama istehsal olunmuşdur ki, bu da son 21 ilin ən yüksək göstəricisidir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Neftçi fermerə dəstək verir

*Əvvəli 1-ci səh.*





Bu, əsasən həmin fermerlərə arıçılıq və kiçik təsərrüfatçılıq üzrə avadanlıq, təlim və müntəzəm məsləhətlər verməklə yaradılan gəlir imkanlarıdır. "Şirin qızıl" adlanan layihə boru kəmərləri boyunca yerləşən daha iki rayondan - Tovuzdan və Ağstafadan seçilmiş əlavə 600 nəfər icma üzvünü əhatə etməklə uzadılıb.

2017-ci ilin dekabr ayında üç il müddətinə uzadılmış "Şirin qızıl" layihəsi çərçivəsində 2018-ci ildə 297 icma nümayəndəsinə arıçılıq, bal arısı xəstəliklərinin idarə olunması, balın çəkilməsi və satışı, marketinqi üzrə təlim keçilib. Bundan əlavə, onların 200 nəfəri arı şanı, bal arısı kötüyü, eləcə də arıçılıq üçün zəruri olan alət və avadanlıqlarla təmin olunub. Layihə çərçivəsində həmçinin arıların şirə çəkməsi üçün ağaclar əkməklə balın keyfiyyətinin yüksəldilməsinə sərmayə qoyulub. Ağac növləri və onların əkiləcəyi ərazilər aidiyyəti orqanlarla, həmçinin mütəxəssislərlə məsləhətləşməklə müəyyən edilib. Layihənin yeni mərhələsi, yəni 3 il ərzində çiçək və meyvələrinin nektarı bol olan 60 min ağac əkiləcək. İndiyədək 10 min belə ağac əkilib və 400 nəfər layihə benefisiarı seçilib.

Daha bir layihə - "Kənd təsərrüfatı üzrə peşə təhsili: yeni ixtisasların yaradılması" layihəsi həyata keçirilib. Bu layihə çərçivəsində kənd təsərrüfatı peşə və ixtisasları üzrə müasir tədris materialları, dərs vəsaitləri və təlim metodologiyası hazırlanıb. Üçü bağçılıq, beşi bitkiçilik və dördü kənd təsərrüfatı texnikası - aqroxidmətlər olmaqla 12 moduldan ibarət olan birinci mərhələdən əlavə ikinci mərhələdə tərəvəzçilik və meyvəçilik üzrə daha yeddi modul üçün dərsliklər, tədris materialları və təlim metodologiyası işlənib.

Layihə çərçivəsində həmçinin Qəbələ, İsmayıllı və Qax rayonlarında yerləşən peşə məktəblərinin tələbələri, müəllimləri və təlimçiləri üçün dərsliklərin müəllifləri tərəfindən 9 master-klass, habelə bir qrup kənd təsərrüfatı mütəxəssisinə və texniki peşə məktəbi müəlliminə potensialın yaradılması və yeni modul üsuluna əsaslanan metodologiya barədə dərslər keçilib.

Həyata keçirilən "Sahibkarlığın İnkişafı Proqramı" (SİP) milyonlarla dollar dəyərində layihədir və yerli sahibkarlığı dəstəkləmək məqsədi daşıyır. Proqram Azərbaycandakı müqavilələrdə yerli resursların iştirakını artırmaq və yerli iqtisadiyyatın sağlam və şəffaf inkişafına dəstək vermək səylərini birləşdirir. 2019-cu ilin birinci yarısında 75 şirkət-sahibkar BP və tərəfdaşlarının maliyyə dəstəyi ilə keçirilən bacarıqların inkişaf etdirilməsi fəaliyyətlərində iştirakını davam etdirib.

2007-ci ildə başlanmış SİP güclü biznes potensialına malik yerli şirkətlərin beynəlxalq standartlara cavab verə bilməsinə və bazarda rəqabət etmək qabiliyyətlərinin artırılmasına dəstək göstərir. Uzunmüddətli perspektivdə bu proqram regionda sənayeyə məhsul və xidmətlər təchiz edə bilən yerli şirkətlərin sayını artırmaq və bununla da iqtisadiyyatın inkişafına töhfə vermək üçün nəzərdə tutulub. 2018-ci ildə 41 şirkət bu proqramı başa çatdırıb və bununla da proqramı bitirmiş şirkətlərin sayı 259-a çatıb.

2017-ci ildə həyata keçirilməyə başlanan "Firavan" layihəsinin məqsədi üç hədəf rayonun (Samux, Yevlax və Ucar) 10 kəndində 10 sahibkar qrupuna səriştələrin yaradılması ilə, avadanlıqlarla yardım edərək onların təsərrüfat məhsuldarlığının və ümumi gəlirlərinin artırılmasına dəstək vermək idi. Layihə 2018-ci ilin avqust ayında başa çatıb. Üç rayondan 100 nəfər sahibkarın hamısı üçün istixana, arıçılıq, çiyələkyetişdirmə, müqayisəli yemləmə və heyvandarlıq sahəsində təlim keçilib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Ermənistanda Paşinyan iqtidarına inam azalıb

## Sosial-iqtisadi sahədə yaşanan problemlər əhalinin narazılığını daha da artırıb

*Əvvəli 1-ci səh.*

D.Şahnazaryan bildirib ki, Dağlıq Qarabağda "məxməri inqilab" bu yaxınlarda hökumətdən 33,6 milyon dram qrant almış erməni təşkilatı və məşhur "Transparency International" tərəfindən həyata keçiriləcək. O, diqqətə çatdırıb ki, guya korrupsiya ilə mübarizə apardığını qeyd edən bu beynəlxalq təşkilatın seçkilərin müşahidəsi ilə məşğul olması ən azından heyrət doğurur: "Qarabağda hakimiyyətin Yerevana müqavimət göstərdiyini görən Paşinyan orada özünün mənafeyinə uyğun rejim yaratmaq üçün yuxarıda göstərdiyim təşkilatların köməyinə müraciət edib".

Erməni siyasətçi əlavə edib ki, guya məramı korrupsiya ilə mübarizə olan "Transparency International" Paşinyan hökumətində baş verən bu cür hallar barədə bir kəlmə belə deməyib: "Açıq-aşkardır ki, əvvəl mövcud olan korrupsiya mexanizmləri nəinki aradan qaldırılmayıb, hətta onları daha da təkmilləşdiriblər.

Yeni hökumət ən azı daha üç yeni mexanizm yaradıb. İndi Paşinyanın həyat yoldaşı tamamilə qeyri-şəffaf fondlar yaradır, onun adamları iri və orta biznes nümayəndələrinə qarşı reketçilikdən istifadə edirlər".

Milli Təhlükəsizlik Xidmətinin sabiq başçısı onu da bildirib ki, Ermənistan hökuməti "inqilab" adı altında ölkədə vətəndaş cəmiyyətini məhv edib. Məsələn, mətbuat azadlığının qorunması ilə məşğul olan təşkilatlar müstəqil medianı boğmağa başlayıblar.

Erməni siyasətçi ölkə vətəndaşlarını beynəlxalq təşkilatların fəaliyyətini nəzarətdə saxlamağa çağırıb və onları maliyyələşdirən Corc Soros fondunun rəhbərinin bu ölkədə "məxməri inqilab"a kömək etdikləri barədə bəyanatını xatırladıb. O, hüquq mühafizə orqanlarını da beynəlxalq təşkilatların ölkənin daxili işlərinə müdaxiləsi ilə bağlı tədbirlər görməyə, onların fəaliyyətini qadağan etməyə səsləyib, Paşinyan hökumətini isə vətəndaşların vergiləri hesabına qondarma Qarabağ respublikasında özünə sərf edən rejim qurmaqda təqsirləndirib.

Beləliklə, son hadisələr Ermənistanda ictimai-siyasi proseslərin gərgin mərhələyə qədəm qoyduğunu aydın nümayiş etdirir. Bu gərginliyin daxili savaşa yol açması belə istisna olunmur. Erməni siyasətçi Vaqe Ovannisyan "Daxili sabitliyin pozulmasını necə önləmək olar?" adlı məqaləsində ölkənin təhlükəli bir mərhələyə girmək ərəfəsində olduğu barədə xəbərdarlıq edir. Bununla yanaşı, o, siyasi səriştəli erməniləri təcili olaraq problemin həlli axtarışlarına qoşulmağa çağırır.

Maraqlıdır ki, Ovannisyan "Ermənistanda növbəti hakimiyyəti kim yaradacaq?", "Ölkədə daxili sabitliyin pozulmasının qarşısını necə almaq olar?" kimi bir-biri ilə bağlı olan suallara cavab tapmaq üçün bütün ermənilərə birlikdə çalışmağı təklif edir. Erməni siyasətçinin fikrincə, ölkənin şüurlu təbəqələri üçün bu gün Ermənistanda baş verənlər qorxulu bir filmə bənzəyir. Bununla belə, artıq son zamanlar bu filmin tamamlanmasına dair gözləntilər də artmaqdadır. Ancaq bu filmin bitməsindən sonra ölkədə daha təhlükəli və dəhşətli bir filmin başlamayacağına hələ ki heç bir zəmanət verilmir.

Beləliklə, Ermənistan daxilində artan narazılıqlar Paşinyan iqtidarı üçün problemə çevrilir. İşğalçı ölkədə siyasi gərginliklə yanaşı, etirazlar da səngimir. Sosial tələblər əsasında baş tutan aksiyalar cəmiyyətdə Paşinyandan narazılıqların artdığını üzə çıxarır. Bütün bunlar qarşıda Ermənistanı həqiqətən çətin bir dövr gözlədiyini tam təsdiq edir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin və onların müavinlərinin 2019-cu ilin sentyabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəli

| Mərkəzi icra hakimiyyəti orqanları, digər qurumlar | Qəbul günü | Qəbulun keçirildiyi və əhatə etdiyi şəhər, rayonlar |
|---|---|---|
| **Vüqar Əhmədov**<br>"Azərişıq" ASC-nin sədrinin vəzifəsini icra edən | 05 | Qəbələ, İsmayıllı |
| **Ramil Yusifov**<br>"Azərişıq" ASC-nin sədrinin müavini | 05 | Oğuz |
| **Əkbər Hacıyev**<br>ARDNŞ-nin "Azəriqaz" İB-nin baş direktoru | 05 | Quba |
| **Ramil İsgəndərov**<br>ARDNŞ-nin "Azəriqaz" İB-nin baş direktorunun müavini | 05 | Qusar |
| **Ruslan Əliyev**<br>ARDNŞ-nin "Azəriqaz" İB-nin baş direktorunun müavini | 05 | Şabran |
| **Ramin Quluzadə**<br>Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri | 06 | Zaqatala, Balakən |
| **Əli Abdullayev**<br>Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini | 06 | Qax |
| **Şahin Yusifov**<br>Ali Məhkəmənin Cinayət kollegiyasının sədri | 06 | Qazax |
| **Vilayət Zahirov**<br>Ədliyyə nazirinin müavini | 12 | İmişli |
| **Zakir Qaralov**<br>Baş prokuror | 13 | Qəbələ, Oğuz |
| **Mikayıl Cabbarov**<br>Vergilər naziri | 13 | Şamaxı, Ağsu, Qobustan |
| **Rüstəm Usubov**<br>Baş prokurorun birinci müavini | 13 | Cəlilabad, Neftçala |
| **İntiqam Babayev**<br>Gənclər və İdman nazirinin müavini | 13 | Sumqayıt, Xızı |
| **İsmayıl İsmayılov**<br>Gənclər və İdman nazirinin müavini | 13 | Şamaxı, Qobustan |
| **Rüstəm Şahbazov**<br>Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini | 13 | Tərtər |
| **Hicran Hüseynova**<br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri | 16 | Qazax, Ağstafa, Tovuz |
| **Sədaqət Qəhrəmanova**<br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 16 | Şəmkir, Daşkəsən, Gədəbəy |
| **Əhməd Əhmədzadə**<br>Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri | 18 | Xaçmaz, Şabran |
| **Qorxmaz Hüseynov**<br>"Azərsu" ASC-nin sədri | 18 | Gəncə, Samux, Kəlbəcər |
| **Şahin Mustafayev**<br>İqtisadiyyat naziri | 19 | Şirvan |
| **Niyazi Səfərov**<br>İqtisadiyyat nazirinin müavini | 19 | Saatlı |
| **Sahib Məmmədov**<br>İqtisadiyyat nazirinin müavini | 19 | Hacıqabul |
| **Arzu Rəhimov**<br>Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi | 19 | Şəki, Oğuz, Qəbələ |
| **Mayıl Şahverdiyev**<br>Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini | 19 | Zaqatala, Balakən, Qax |
| **Teyyub Cabbarov**<br>"Azərsu" ASC-nin sədrinin birinci müavini | 19 | Göygöl, Daşkəsən |
| **Ramiz Rzayev**<br>Ali Məhkəmənin sədri | 20 | Lənkəran |
| **Fikrət Məmmədov**<br>Ədliyyə naziri | 20 | Qəbələ, İsmayıllı, Oğuz |
| **Sahil Babayev**<br>Əmək və Əhalinin Sosial Müdafiəsi naziri | 20 | Quba |
| **Anar Kərimov**<br>Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini | 20 | Xaçmaz |
| **Mətin Kərimli**<br>Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini | 20 | Qusar |
| **Azad Rəhimov**<br>Gənclər və İdman naziri | 20 | Abşeron |
| **Əbülfəs Qarayev**<br>Mədəniyyət naziri | 20 | Naftalan, Samux |
| **Vaqif Əliyev**<br>Mədəniyyət nazirinin birinci müavini | 20 | Gəncə, Kəlbəcər |
| **Rafiq Bayramov**<br>Mədəniyyət nazirinin müavini | 20 | Goranboy, Xocalı |
| **Oqtay Şirəliyev**<br>Səhiyyə naziri | 20 | Tərtər, Goranboy |
| **Elsevər Ağayev**<br>Səhiyyə nazirinin müavini | 20 | Bərdə, Ağdam |
| **Rahim Əliyev**<br>Səhiyyə nazirinin müavini | 20 | Ağcabədi |
| **Sahir Məmmədxanov**<br>Vergilər nazirinin birinci müavini | 20 | Beyləqan, İmişli, Füzuli, Ağcabədi, Xocavənd, Laçın |
| **Sahib Ələkbərov**<br>Vergilər nazirinin müavini | 20 | Qazax, Ağstafa, Tovuz Şəmkir |
| **Azər Cəfərov**<br>Ədliyyə nazirinin müavini | 20 | Lənkəran |
| **Rövşən Rzayev**<br>Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri | 20 | Ağdam |
| **Sabir Əhmədov**<br>Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 20 | Tərtər |
| **Saleh Məmmədov**<br>Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri | 20 | Sabirabad, Saatlı |
| **Əvəz Qocayev**<br>Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini | 20 | İmişli |
| **Namiq Babayev**<br>Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurası sədrinin müavini | 20 | Hacıqabul |
| **Zakir Quliyev**<br>Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədrinin müavini | 20 | Qusar |
| **Rafiq Aslanov**<br>Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədrinin müavini | 20 | Quba |
| **Etibar Məmmədov**<br>"Azərsu" ASC-nin sədrinin müavini | 20 | Naftalan, Goranboy, Xocalı |
| **Seyfulla Əzimov**<br>Daxili İşlər nazirinin birinci müavini | 21 | Şirvan, Hacıqabul, Sabirabad, Saatlı, Salyan, Neftçala, Biləsuvar, Cəbrayıl, İmişli, Zərdab |
| **Mətin Eynullayev**<br>Vergilər nazirinin müavini | 23 | Cəlilabad, Lənkəran, Astara, Lerik, Masallı, Biləsuvar |
| **Mübariz Qurbanlı**<br>Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri | 24 | Beyləqan, Xocavənd |
| **Səyyad Salahlı**<br>Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini | 24 | Saatlı, İmişli |
| **Gündüz İsmayılov**<br>Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini | 24 | Sabirabad |
| **Muxtar Babayev**<br>Ekologiya və Təbii Sərvətlər naziri | 27 | Qax |
| **Firdovsi Əliyev**<br>Ekologiya və Təbii Sərvətlər nazirinin müavini | 27 | Balakən |
| **Rauf Hacıyev**<br>Ekologiya və Təbii Sərvətlər nazirinin müavini | 27 | Zaqatala |
| **Pərviz Şahbazov**<br>Energetika naziri | 27 | Tovuz |
| **Samir Vəliyev**<br>Energetika nazirinin müavini | 27 | Qazax, Ağstafa |
| **Elnur Soltanov**<br>Energetika nazirinin müavini | 27 | Şəmkir |
| **Kəmaləddin Heydərov**<br>Fövqəladə Hallar naziri | 27 | Cəlilabad |
| **Rəfail Mirzəyev**<br>Fövqəladə Hallar nazirinin birinci müavini | 27 | Masallı |
| **Etibar Mirzəyev**<br>Fövqəladə Hallar nazirinin müavini | 27 | Lənkəran |
| **İnam Kərimov**<br>Kənd Təsərrüfatı naziri | 27 | Ağdaş, Bərdə |
| **İlham Quliyev**<br>Kənd Təsərrüfatı nazirinin müavini | 27 | Tərtər, Ağdam |
| **Seyfəddin Talıbov**<br>Kənd Təsərrüfatı nazirinin müavini | 27 | Mingəçevir, Yevlax |
| **Ceyhun Bayramov**<br>Təhsil naziri | 27 | İsmayıllı, Ağsu |
| **Firudin Qurbanov**<br>Təhsil nazirinin müavini | 27 | Şamaxı, Qobustan |
| **Hikmət Mirzəyev**<br>Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyasının sədri | 27 | Tovuz |
| **Səfər Mehdiyev**<br>Dövlət Gömrük Komitəsinin sədri | 27 | Biləsuvar, İmişli |
| **İsmayıl Hüseynov**<br>Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini | 27 | Neftçala |
| **Əsgər Abdullayev**<br>Dövlət Gömrük Komitəsi sədrinin müavini | 27 | Cəlilabad |
| **Kərəm Həsənov**<br>Əmlak Məsələləri Dövlət Komitəsinin sədri | 27 | Bərdə |
| **Rafiq Cəlilov**<br>Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini | 27 | Ağdam |
| **Namiq Əsgərov**<br>Baş prokurorun müavini | 27 | Qazax, Ağstafa |
| **Vilayət Eyvazov**<br>Daxili İşlər naziri | 28 | Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad |
| **Məleykə Abbaszadə**<br>Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri | 30 | Cəlilabad |

**Qeyd:** *Vətəndaşların qaldırdıqları məsələlər qəbulu keçirən təşkilatların səlahiyyətlərinə aid olmalıdır.*

# REGİONLAR





Ölkəmizin nəhəng avtomobil istehsalçısı olan Gəncə Avtomobil Zavodu bu gün, sözün əsl mənasında, özünün inkişaf dövrünü yaşayır. 15 il əvvəl bu müəssisənin qısa vaxt ərzində yüksək keçidli, ağırtonnajlı avtomobillər istehsal edəcəyini söyləyəndə çoxları təəccübünü gizlətmirdi. Lakin illər keçdikcə zavod istehsal sahələrini genişləndirməklə nəhəng, özü də ölkə üçün çox vacib olan texnikaların istehsalına başladı. Dövlət başçısının diqqət və qayğısı sayəsində müəssisə, sözün əsl mənasında, nəinki ölkəmizdə, eləcə də regionun nəhəng avtomobil istehsalçısına çevrildi. Zavodun hətta Türkiyədə filialı açıldı. Bu günlər isə müəssisə daha bir yeniliyə imza atıb. Zavodda yeni “E-321” markalı elektrobusun və “PALESSE KZS-575” markalı taxılbiçən kombaynın ilk nümunələri konveyerdən çıxıb. Qazanılan bu uğurlar, söz yox ki, gərgin əməyin və axtarışların, eləcə də işgüzar əlaqələrin qurulması sayəsində mümkün olmuşdur. Bununla bağlı zavodun direktoru Kamran Nəzərovun fikirlərini öyrəndik.

# Gəncə Avtomobil Zavodu yeni uğurlara imza atır









*- Kamran müəllim, sözsüz ki, qazanılan hər uğurun arxasında gərgin iş dayanır. Yaxşı olar ki, bu barədə bir qədər məlumat verəsiniz.*

- Qeyd edim ki, 2004-cü ildə “OKA”, “UAZ”, “CANQAN” minik avtomobillərinin yığımı ilə fəaliyyətə başlayan zavodda indi 40-dan artıq markada müxtəlif texnika istehsal olunur. Onların sırasında iri texnikalar çoxdur. Onu da diqqətə çatdırım ki, biz hər hansı texnikanın istehsalına başlamaq üçün dəfələrlə məsləhətləşir, araşdırma aparırıq. Çünki fəaliyyət dövrü o qədər də çox olmayan zavodda xırda bir səhvə yol verilməsi müəssisənin iflası deməkdir. Odur ki, müqavilə bağlamazdan əvvəl araşdırma aparırıq. Öncə istehsal olunacaq texnikanın alıcılıq qabiliyyətini yoxlayırıq. Bu işdə mütəxəssislərin fikirləri öyrənilir. İşə belə münasibətin nəticəsidir ki, istehsal etdiyimiz texnikaların satışında heç bir problem yaşanmır. Məsələn, məlum məsələdir ki, “KamAZ” ASC Rusiyanın yük avtomobili istehsalçısıdır. Zavod SSRİ dövründə yaradılıb və müasir qloballaşma şəraitində inkişaf yolu keçib. İstehsala başlayandan “KamAZ” avtomobilləri keçmiş sovetlər məkanında populyarlıq qazanıb və indiyədək MDB ölkələrində avtomobil yükdaşımalarının əsasını təşkil edir. Gündən-günə inkişaf edən ölkəmizdə də bu avtomobillərə böyük tələbat var. Odur ki, ilkin mərhələdə Azərbaycanda, sonralar isə xarici bazarlarda onun satışını təşkil etdik. Bu işdə qazandığımız uğurlar bizi daha da ruhlandırdı və yeni texnikaların istehsalını təşkil etmək üçün partnyorlar axtarışına çıxdıq. Qısa vaxtda müəssisədə 7 modeldə “Belarus” traktorlarının, 20 modeldə “MAZ” avtomobillərinin, “HALLER” məişət tullantıları daşıyan maşınların, yol infrastrukturunun yenilənməsində istifadə olunan texnikaların istehsalını mənimsəmişik. Ümumiyyətlə, zavod fəaliyyətə başladığı vaxtdan indiyədək ümumilikdə 11 modeldə 10549 traktor, 143 xüsusi təyinatlı traktor yığıb təhvil vermişik. Bu texnikalarda 9825-i dövlət sifarişi əsasında “Aqrolizinq” ASC-yə, 724-ü fermerlərə və iş adamlarına satılıb. 2019-cu ilin 6 ayı ərzində 600-dək texnika istehsal olunub. Onlardan 500-dən çoxu müxtəlif model traktorlar, qalanı “MAZ” markalı qoşqulu, “KamAZ” markalı avtomobillər, “MAZ” markalı avtobus və yükünü özü-boşaldan traktor qoşqusudur.

*- Son illər ölkəmizdə aqrar sektorun sürətli inkişafı bu sahədə lazım olan texnikalara tələbatı artırmışdır. Daim axtarışda olan zavod mütəxəssisləri bu sahədə bir sıra uğurlara imza atmışlar. Bu barədə nə deyə bilərsiniz?*

- Bu istiqamətdə də istehsal proseslərini tamamilə mənimsəmişik. Sexlərdə ən müasir yığım aqreqatları quraşdırılıb. İşçilərin peşə hazırlığı yüksək səviyyədə olduğundan hər hansı texnikanın yığımında çətinlik olmur. İndi elə bir texnika ola bilməz ki, onun nümunəsinə baxıb, yığımını təşkil edə bilməyək. Özü də mütəxəssislərimiz işlərinə yaradıcı baxırlar. Daim yeniliyə can atan mühəndis və texniklərimiz bu sahədə uğur qazanırlar. Məsələn, son illər pambıqçılıqda işlədilən texnikaların istehsalı diqqət mərkəzində saxlanılmış, nəticədə zavod mütəxəssisləri bir sıra yeniliyə nail olmuşlar. Belə ki, belaruslu həmkarlarla aparılan axtarışlar nəticəsində Gəncə mütəxəssisləri “Belarus” traktorunun bazasında yeni minipambıqyığan kombaynın istehsalına başlamışlar. Bundan başqa, pambıq yığımında ən çox işlədilən lafetlərin istehsalı da mənimsənilmişdir. Halbuki həmin lafetlər əvvəllər xarici ölkələrdən alınırdı. Keçən ildən bağçılıqda istifadə edilən mini traktorların da istehsalına başlamışıq. 95 at gücündə olan bu traktorlar bağlarda aparılan bütün aqrotexniki işləri görməyə qadirdir.

*- Eşitdik ki, bu yaxınlarda üçtərəfli müqavilə əsasında Gəncə Avtomobil Zavodunun Türkiyənin Kırıkkale bölgəsində yeni filialı fəaliyyətə başlayıb. Belə ki, orada “Belarus” markalı traktor istehsalı zavodunun açılışı olub.*

- Doğrudur. Həqiqətən, filialın açılışı əsl əlamətdar hadisəyə çevrildi. Azərbaycan-Türkiyə İstehsalat Birliyi (ATİB) tərəfindən idarə olunacaq zavodun açılış mərasimində “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyi Müşahidə Şurasının sədri, Milli Məclisin deputatı Xanlar Fətiyev, Azərbaycanın Ankaradakı səfiri Xəzər İbrahim, ATİB-in direktoru Murad İsmayılov, Türkiyənin Kənd Təsərrüfatı və Meşəçilik naziri Bəkir Pakdemirli, Türkiyə Böyük Millət Məclisinin üzvü Ramazan Can, Belarus Respublikasının Baş Nazirinin müavini İqor Lyaşenko, həmin ölkənin Sənaye naziri Pavel Utupin, Türkiyədəki səfiri Aleksandr Savinin, “BelAZ” Avtomobil Zavodunun baş direktoru Pyotr Parxomçik, “Minsk Traktor Zavodu” ASC-nin baş direktoru Fyodor Domatenko və başqa rəsmi şəxslər iştirak etmişlər.

Açılış mərasimində bildirildi ki, layihə üçün güzəştli şərtlərlə torpaq sahəsi ayrılıb. Türkiyə tərəfi zavodun fəaliyyəti və inkişafı üçün bir sıra imtiyazlar müəyyən edib. Layihənin sərmayə dəyəri 17 milyon ABŞ dollarıdır. Bu vaxta kimi görülən işlərə ümumilikdə 5 milyon dollar vəsait sərf olunub. Gələcəkdə zavodda azərbaycanlı mütəxəssislərin işləməsi də nəzərdə tutulur.

*- Gəncə Avtomobil Zavodu bu günlər daha bir yeniliyə imza atıb. Müəssisədə ilk dəfə “E-321” markalı elektrobus və “PALESSE KZS-575” markalı taxılbiçən kombayn yığılıb.*

- Belarus Respublikası Baş Nazirinin müavini İqor Lyaşenkonun, Sənaye nazirinin müavini Dmitri Korçikin, “Qom Selmaş” ASC-nin baş direktoru Aleksandr Novikovun, Belarusun ölkəmizdəki səfiri Gennadi Axramoviçin, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun, “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyi Müşahidə Şurasının sədri, Milli Məclisin deputatı Xanlar Fətiyevin iştirakı ilə keçirilən mərasimdə bildirildi ki, bu gün Azərbaycanda həm elektrobusa, həm də taxılyığan kombaynlara böyük ehtiyac var. Yaxın vaxtlarda Azərbaycanın ictimai nəqliyyyat sektorunda ekoloji cəhətdən təmiz olan bu texnikalar görünməyə başlayacaq. Qeyd edək ki, hər iki texnika Gəncə Avtomobil Zavodu ilə Belarusun “Belkommunas” ASC arasında bağlanmış ikitərəfli əməkdaşlıq müqaviləsi çərçivəsində istehsal olunacaq. 83 sərnişin tutumu olan avtobuslar kondisioner, məlumat monitoru və videonəzarət sistemi ilə təchiz ediləcək. Saatda 60 kilometr sürətlə hərəkət edə biləcək elektrobusların enerji sistemi 6 dəqiqə ərzində dolur. “PALESSE KZS-575” markalı taxılyığan kombaynın mühərriki isə 114/155 at gücündədir. Qeyd edək ki, sifariş olsa, ildə 150 elektrobus, 120 taxılbiçən kombayn yığa bilərik.

Bunlardan əlavə, biz Finlandiyanın məşhur “Sampo” firması ilə əməkdaşlıq memorandumu imzalamaq barədə razılığa gəlmişik. İki şirkət gələcəkdə ölkəmizdə kombaynlara texniki servisin göstərilməsi, texnikaların ehtiyat hissələrinin hazırlanması, təminatı və digər məsələlərlə bağlı əməkdaşlıq etməyi planlaşdırır. Onu da qeyd edim ki, birgə fəaliyyətlə bağlı təklif “Sampo” firmasından gəlib.

*- Bildiyimiz kimi, müəssisənin istehsal sahələri genişləndikcə işçi qüvvəsinə də tələbat artır. Bu məsələni necə həll edirsiniz?*

- Doğrudur, bu sahədə əvvəllər çətinliklərimiz olurdu. Lakin indi mütəxəssis sarıdan heç bir problemimiz yoxdur. Artıq yüksəkixtisaslı kadrlarımız yetişib. Müəssisəyə təzə işə götürülənlər isə ixtisaslı mütəxəssislərə həvalə olunur. Onlar qısa vaxt ərzində istehsalatı mənimsəyirlər. Hazırda zavodumuzda 600 nəfərə yaxın işçi çalışır. Onların işə gəlib-getmələri üçün xüsusi avtobuslar ayrılıb. Orta əməkhaqqı pis deyil. Bu yaxınlarda müəssisədə işçilərin pulsuz yeməklə təmin edilməsi üçün müasir yeməkxana da istifadəyə verilib. Bundan başqa, hər il yüzlərlə işçi istirahət ocaqlarında dincəlmək üçün pulsuz göndərişlərlə təmin olunur.

***Müsahibəni apardı:***
***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

# Qayalar yol inşaatçılarına təslim olur

Ölkənin hər yerində olduğu kimi, Quba rayonunda da çoxsaylı yol infrastrukturu layihələri həyata keçirilir. İstər respublika, istərsə də yerli əhəmiyyətli avtomobil yolları, körpülər tikilir, kənd və kəndlərarası yollar yenidən qurulur.









Sovet dönəmində uzun illər ucqar dağlıq ərazilərdə yollar bərbad vəziyyətdə idi. Hətta bəzi kəndlər yolsuzluq üzündən boşalır, qalan əhalinisə mərkəzlə əlaqəsi zəifləyirdi. Halbuki elə o vaxtlar da Quba Azərbaycanın turizm regionu idi. Tarixi min illəri adlayan kəndlər, əsrarəngiz təbiət, flora və fauna bu yerlərin vizit kartı sayılırdı. Amma həmin ərazilər, o cümlədən dünyaca məşhur Xınalıq kəndinə gedən yol keçilməz səddi xatırladırdı.

Dağlıq ərazilərlə zəngin olan Qubada yolların, demək olar, yarıdan çoxu təbii amillərin təsiri ilə sıradan çıxır. Qışda qar uçqunları, yağışlı aylarda torpaq sürüşmələrinin baş verməsi nəticəsində yollar keçilməz olur. Sürüşmə və iri qaya parçalarının yola tökülməsi ölkənin cəlbedici turizm marşrutlarından olan Quba-Xınalıq avtomobil yolunun tez-tez uzunmüddətli bağlanması ilə nəticələnir. Bu da həmin yolun üstündə yerləşən bir neçə yaşayış məntəqəsi ilə əlaqəni kəsir. Qışı sərt keçən rayonda bəzi kəndlərlə əlaqə yalnız qar əriyəndən sonra normallaşır.

Rayonda belə problemlərin həlli üçün son vaxtlar xeyli iş görülüb. Uzun illər yerli əhaliyə böyük narahatlıq yaradan, 10 kəndi birləşdirən 23 kilometrlik Hacıhüseynli-Gənclər qəsəbəsi avtomobil yolu və bu yola birləşən digər yollar təmir olunub. Quba-Xaçmaz avtomobil yolunun 14 kilometrlik hissəsi də yenidən qurulub. Bakı-Quba avtomobil yolunun Alekseyevka kəndi ərazisindən keçən hissəsində, İdrisiqışlaq-Qasımqışlaq-Xaspolad-Zərqava-Asperəsti-Çayqışlaq yolunun ətrafında isə yaşıllıq zolaqları salınıb. Hazırda Quba-Susay avtomobil yolunun davamı olan 30 kilometrlik Susay-Xınalıq, həmçinin sözügedən yoldan 4,8 kilometr məsafədə dağlıq ərazidə yerləşən Qrız kəndinə gedən avtomobil yolunun tikintisi aparılır.

“Dağlarda ada” sayılan, öz unikallığı ilə seçilən Xınalıq kəndinin ölkəmizdə turizm üçün əhəmiyyətli olmasını və əhalinin alternativ yolla daha rahat gediş-gəlişinin təmin edilməsinin vacibliyini nəzərə alan ölkə rəhbəri ötən ilin oktyabrında və bu ilin yanvarında Susay-Xınalıq avtomobil yolunun tikintisi ilə əlaqədar sərəncamlar imzalamış, bu iş üçün ilkin mərhələdə 20,5 milyon manat vəsait ayırmışdır. Ötən ilin noyabr ayından etibarən ərazidə yol inşaat işlərinə başlanılmışdır.

Yayın isti aylarında belə Xınalıq istiqamətində hava çiskinli və yağıntılı olur. Buna baxmayaraq, yolda qızğın iş gedir. Alpan kəndindən keçən Quru çayın üzərindəki 1-ci körpüdə son tamamlama işləri aparılır. Belə ki, uzunluğu 60, eni 12, hündürlüyü 4 metrə yaxın olan körpünün üst qatına beton tökmək üçün armaturla tor hörülür. Bundan başqa, Susay kəndi ərazisində - Quru çay üzərində inşa olunan ikinci körpüdə də inşaat işləri sürətlənib. Körpünün uzunluğu 52, eni 12,5, hündürlüyü 10 metr olacaq.

Eyni zamanda, Quba-Qusar yolundan Susay kəndinə qədər olan 23 kilometr yol yatağı genişləndirilir, qum-çınqıl tökülərək möhkəmləndirilir. Tikinti zamanı iri qaya parçaları, sərt döngələr çapılaraq yoxuşlar hamarlanır. Lilli çayın və Gəray kəndinin qarşısındakı çayın məcrasına diametri 1,2-2 metr olan beton borular qoyularaq 8 metrlik körpülər quraşdırılıb.

İnşaatçıların işinə çətinlik yaradan dağlıq ərazilərə xas olan dərələrdir. Onların bir çoxu doldurulub, Vəli və Elçin dərələrində isə 1,5-2 metr diametrli borular yerləşdirilib. Uzunmeşə və Gəray kəndləri arasındakı 3 kilometrlik yol dik olduğundan inşaatçılar qayaları çaparaq yolu hamarlayıblar. Artıq Susay kəndinə qədər olan yola bir qat asfalt örtüyü çəkilib. Yolun eni 11, hərəkət zolağı - asfalt hissəsi isə 7 metrdir.

Onu da bildirək ki, Susay-Xınalıq yolunun çətinliyi hələ öndədir. Belə ki, Susaydan Xınalığa qədər olan məsafə əsasən dağlıq ərazilərdən ibarətdir. Dağ yamaclarının yarılması, yoxuşların mailiiliyinin azaldılması çətindir, xüsusilə də payız-qış aylarında. Lakin işə ürəklə girişəndə çətinlik azalır. Gələn il yolun istifadəsi nəzərdə tutulub. İşin sürəti göstərir ki, yol inşaatçıları qrafikə əməl edəcəklər.

***Akif ƏLİYEV,***
***“Azərbaycan”***

# Kəndlinin zəhməti hədər getmir

**Yevlax kəndlisi bu gün əkin dövriyyəsində olan torpaqların hər qarışından maksimum səmərəli istifadə etməyə çalışır. Bu səbəbdən cari ilin arxada qalan yarısının nəticələri yetərincə qənaətbəxşdir. Ötən 6 ay ərzində rayonda ümumilikdə 51 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdir ki, bu da keçən ilin eyni dövrü ilə müqayisədə 5,6 faiz çoxdur.**

Hesabat dövründə rayon üzrə 2712 ton buğda, 988 ton arpa, 426 ton tərəvəz, 5367 ton yonca itsehsal edilmişdir. Heyvandarlıq sahəsində qazanılan nəticələr də fərəhlidir. Cari ilin arxada qalan altı ayı ərzində keçən ilin eyni dövrü ilə müqayisədə 4,8 ton çox ət, 697 min ədəd çox yumurta və 1207 ton çox süd istehsal olunmuşdur.

Bu ilin birinci yarısında rayonun torpaq mülkiyyətçilərinə güzəştli şərtlərlə 4250 ton mineral gübrə satılmış, eyni zamanda əkin sahələrinin suvarılmasının yaxşılaşdırılması və məhsuldarlığının yüksəldilməsi üçün 197 kilometr suvarma kanalı lildən təmizlənmiş, 61 hidrotexniki qurğuda cari təmir işləri aparılmış, su nasos stansiyalarına xidmət edən 2 kilometr uzunluğunda təzyiqədavamlı boru kəmərləri saz hala gətirilmiş, 2 nasos stansiyasında təmir-bərpa işləri görülmüş, 4 min metr məsafədə beton kanal hissə-hissə təmir edilmiş, 478 metr beton kanal isə əsaslı təmir olunub kənd əməkçilərinin istifadəsinə verilmişdir.

İndi rayonun təsərrüfatlarında işlərin qızğın çağıdır. Cari təsərrüfat ilində böyük uğurlara imza atan Yevlax kəndlisi gücünü pambıq tarlalarında sınayır. Bu il rayonun təsərrüfatlarında 2406 hektar sahədə pambıq əkilmişdir. Kolların bara dolduğu yayın bu isti günlərində tarlaların suvarılmasına son dərəcə diqqətlə yanaşılmalıdır. Odur ki, tarlaların suvarılması, zərərvericilərə qarşı mübarizə tədbirləri yüksək aqrotexniki qaydalar əsasında həyata keçirilir.

Zəhmət dolu günlər ötüb-keçəcək, geniş tarlalar yenə başdan-başa ağ örpəyə bürünəcək. Bu, dövlətin qayğısından, bərəkətli torpağın səxavətindən güc alan, öz halal zəhmətinə, alın tərinə güvənən Yevlax kəndlisinin də üz ağlığına çevriləcək.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***



## “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-kommunal və təmir xidməti 2019-cu ildə İçərişəhər ərazisində fasad və eyvanların təmiri işlərinin satınalması üzrə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

**LOT-1: 2019-cu ildə İçərişəhər ərazisində fasad və eyvanların təmiri işlərinin satınalması**

Tenderdə iştirak etmək istəyənlər hər LOT üçün 150 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-kommunal və təmir xidmətinin Bakı şəhəri, İçərişəhər, 9-cu Maqomayev döngəsi, 6 nömrəli (əlaqələndirici şəxs: Mahir Əhmədov, telefon: (012) 492-24-27) ünvanından ala bilərlər.

**VÖEN: 1700774621**
**Hesab: AZ03AIIB33050019443600287106**
**Bank: Kapital Bank ASC, İçərişəhər filialı**
**Kod: 200060**
**VÖEN (bank): 9900003611**
**M/h: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. AİİBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *digər sənədlər: analoji işlərin yerinə yetirilməsinə dair iddiaçının potensial imkanları haqqında məlumat və Dövlət Sosial Müdafiə Fonduna borcun olub-olmamasına dair arayış.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **19 sentyabr 2019-cu il saat 17:00-a qədər,** tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **27 sentyabr 2019-cu il saat 17:00-a qədər** “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-kommunal və təmir xidmətinin Bakı şəhəri, İçərişəhər, 9-cu Maqomayev döngəsi, 6 nömrəli ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri LOT-1 üçün **01 oktyabr 2019-cu il saat 11:00-da** Mənzil-kommunal və təmir xidmətinin Bakı şəhəri, İçərişəhər, 9-cu Maqomayev döngəsi, 6 nömrəli ünvanında açılacaqdır.

***Tender komissiyası***

## “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-kommunal və təmir xidməti “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin mənzil fondunun əsaslı təmiri işlərinin satınalması üzrə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

**LOT-1: 2019-cu ildə “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin mənzil fondunun əsaslı təmiri işlərinin satınalması**

Tenderdə iştirak etmək istəyənlər hər LOT üçün 150 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-kommunal və təmir xidmətinin Bakı şəhəri, İçərişəhər, 9-cu Maqomayev döngəsi, 6 nömrəli (əlaqələndirici şəxs: Mahir Əhmədov, telefon: (012) 492-24-27) ünvanından ala bilərlər.

**VÖEN: 1700774621**
**Hesab: AZ03AIIB33050019443600287106**
**Bank: Kapital Bank ASC, İçərişəhər filialı**
**Kod: 200060**
**VÖEN (bank): 9900003611**
**M/h: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. AİİBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *digər sənədlər: analoji işlərin yerinə yetirilməsinə dair iddiaçının potensial imkanları haqqında məlumat və Dövlət Sosial Müdafiə Fonduna borcun olub-olmamasına dair arayış.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **19 sentyabr 2019-cu il saat 17:00-a qədər,** tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **27 sentyabr 2019-cu il saat 17:00-a qədər** “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-kommunal və təmir xidmətinin Bakı şəhəri, İçərişəhər, 9-cu Maqomayev döngəsi, 6 nömrəli ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri LOT-1 üçün **01 oktyabr 2019-cu il saat 10:00-da** Mənzil-kommunal və təmir xidmətinin Bakı şəhəri, İçərişəhər, 9-cu Maqomayev döngəsi, 6 nömrəli ünvanında açılacaqdır.

***Tender komissiyası***

*Təkrar*

## “Bakı Metropoliteni” QSC metro vaqonlarının maşinist kabinəsi üçün kondisionerin və müxtəlif növ kondisioner süzgəclərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT-1. Metro vaqonlarının maşinist kabinəsi üçün kondisionerin və müxtəlif növ kondisioner süzgəclərinin satın alınması**

**İştirak haqqı - 500 manat**

**Hesabın adı: “BAKI METROPOLİTENİ” QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **09 sentyabr 2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **17 sentyabr 2019-cu il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **18 sentyabr 2019-cu il saat 16:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

AZƏRLOTEREYA

## “Azərlotereya” ASC yeni “Qoşa Şans 5” lotereyası təşkil edəcək







“Azərlotereya” ASC-də Yeni “Qoşa Şans 5” ani lotereyasının layihəsi işlənib hazırlanmışdır. Yaxın vaxtlarda qeyd olunan yeni ani lotereyasının satışına start veriləcəkdir. “Qoşa Şans 5” ani lotereyasının çap sayı 3 000 000 (üç milyon) ədəd nəzərdə tutulmuşdur ki, bunlardan da 965 790 ədəd uduşlu lotereya biletləri olmaqla, 3 ədəd 55 000 manat, 6 ədəd 25 000 manat, 9 ədəd 10 000 manat, 12 ədəd 5 000 manat müxtəlif sanballı, irili-xırdalı pul mükafatları lotereya həvəskarlarının yolunu gözləyir.

“Qoşa Şans 5” ani lotereyasının oyun qaydaları aşağıdakı kimidir:

Lotereya biletlərinin üzərində yerləşən üstüörtülü “Şans1”, “Şans 2” və “oyun xətləri”nin qoruyucu səthini pozmaq lazımdır. “Şans1” və “Şans 2” zonalarında yazılan rəqəmlərdən biri “oyun xətləri”nin üzərində olan rəqəmlərdən biri ilə üst-üstə düşərsə, bilet həmin xəttdə göstərilən mükafatı udmuş olur. Bilet bir neçə xətt üzrə uduşlu olarsa, uduşlar cəmlənir. Örtülü zonalarda olan rəqəmlərin hər hansı başqa kombinasiyası biletin uduşsuz olduğunu göstərir.

Azərbaycan Respublikasının ərazisində “Azərlotereya” ASC-nin təşkil etdiyi lotereyalarda 18 (on səkkiz) yaşına çatmış şəxslər könüllü şəkildə lotereya oyununda iştirak edə bilər.

Bildiririk ki, “Azərlotereya” ASC-də keçiriləcək hər bir yeni lotereya barəsində tərəfimizdən mütəmadi olaraq lotereya həvəskarlarına məlumat veriləcəkdir.

**Sizin “Azərlotereya”**

## Bildiriş

”Azərlotereya” Açıq Səhmdar Cəmiyyəti tərəfindən 24.07.2019-cu il tarixdə keçirilmiş ”Kompüter və digər avadanlıqlarının satın alınması” üzrə kotirovka sorğusunun qalibi ”Premier” MMC -ilə 7398.60 manat məbləğində satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## Avropada qızılca dramatik şəkildə yayılıb



Avropada qızılcaya yoluxmanın dramatik artımı qeydə alınmışdır. “Frans Press” agentliyinin xəbərinə görə, ekspertlər xəstəliyin yayılmasını qismən peyvənddən imtina etməklə əlaqələndirirlər.

Dünya Səhiyyə Təşkilatının (DST) verdiyi məlumata görə, cari ilin ilk altı ayında 90 min nəfər qızılca xəstəliyi tutmuşdur. Bu müddət ərzində xəstəliyə yoluxma hallarının sayı 2018-ci ilin ilk yarısında qeydə alınmış göstəricidən iki dəfə çox olmuşdur. Ekspertlər qeyd edirlər ki, qızılcaya yoluxma hallarının 78 faizi dörd ölkənin - Ukrayna, Qazaxıstan, Gürcüstan və Rusiyanın payına düşür. Ən ağır vəziyyət Ukraynada müşahidə edilir. Səhiyyə Nazirliyinin məlumatına görə, ilin əvvəlindən bəri ölkədə 57 min 301 nəfər, o cümlədən 30 mindən çox uşaq qızılcaya yoluxmuş, xəstəliyin ağırlaşması səbəbindən 18 nəfər vəfat etmişdir. Ən çox yoluxma halı paytaxt Kiyevdə, həmçinin Kiyev və Odessa vilayətlərində qeydə alınmışdır.

Bundan başqa, Albaniya, Çexiya, Yunanıstan və Böyük Britaniya qızılcadan azad ölkələr statusunu itirmişdir.

## Pakistan ballistik raketi sınaqdan çıxardı



Pakistan hərbçiləri “yer-yer” tipli “Qəznəvi” ballistik raketini uğurla sınaqdan çıxardıqlarını bəyan etmişlər. Bu barədə Müdafiə Nazirliyinin mətbuat katibi Asif Qafur məlumat vermişdir.

Qafur qeyd etmişdir ki, “Qəznəvi” müxtəlif tipli döyüş başlıqlarını, o cümlədən nüvə başlıqlarını 290 kilometrədək məsafəyə daşımağa qadirdir. Döyüş başlığının çəkisi 700 kiloqrama qədərdir. Raketi Pakistan Milli İnkişaf Kompleksi hazırlamışdır.

Srağagün Pakistan Mülki Aviasiya İdarəsi elan etmişdi ki, Kəraçi şəhərinin səmasında üç hava dəhlizi avqustun 28-dən 31-dək bütün beynəlxalq reyslər üçün bağlanacaq. Həmin gün ANİ agentliyi Pakistanın Kəraçi şəhərinin yaxınlığında yerləşən “Sonmiani” poliqonunda raket sınaqları keçirməyi planlaşdırdığını xəbər vermişdi.

## ABŞ Yaponiyaya 3,3 milyard dollarlıq raket satacaq



ABŞ Yaponiyaya raket əleyhinə müdafiə sistemləri satmağı planlaşdırır. İlkin hesablamalara görə, satılacaq silahın qiyməti 3,3 milyard dollara çatacaq.

Yaponiya SM-3 Bloct İİA raketləri alacaq. Belə raketlər AEGİS hərbi informasiya sistemindən istifadə edən döyüş gəmilərinə yerləşdirilir. Bu sistem sayəsində donanma qitələrarası ballistik raketləri aşkarlaya bilir.

Qeyd olunur ki, Pentaqon həmçinin Macarıstan, Cənubi Koreya, Litva və Danimarkaya 943 milyon dollarlıq yeni silahlar satmaq niyyətindədir.

## Türkiyə və İraq yeni neft kəmərinin inşasını müzakirə edirlər



Ankara və Bağdad yeni neft kəmərinin inşası layihəsini müzakirə edirlər. “Anadolu” agentliyinin verdiyi xəbərə görə, yeni kəmər təkcə İraqın Kərkük vilayətinin yox, həm də ölkənin cənubundakı yataqların neftini Aralıq dənizindəki Ceyhan limanına nəql edəcək.

Məsələ Bağdadda Türkiyənin energetika və təbii ehtiyatlar naziri Fatih Dönməz və İraqın neft naziri Samir Qədbanın iştirakı ilə danışıqlar zamanı müzakirə edilmişdir. Yeni boru kəməri marşrutu Kərkükdən Türkiyə ilə sərhəd istiqamətində uzanan köhnə neft kəməri ilə paralel inşa olunacaq.

## “Qarabağ” UEFA Avropa Liqasının qrup mərhələsinə vəsiqə qazanıb





UEFA Avropa Liqasında 2019-2020-ci illər mövsümünün pley-off mərhələsi çərçivəsində keçirilən “Qarabağ” - “Linfild” oyunu Ağdam təmsilçisinin 2:1 hesablı qələbəsi ilə başa çatıb.

AZƏRTAC xəbər verir ki, oyunun son dəqiqələrində “Qarabağ” hesab arasındakı fərqi iki topa çatdırıb. İkinci qolu rəqib qapısından 88-ci dəqiqədə Abdullah Zubir keçirib. Lakin oyunun əsas vaxtına əlavə edilmiş dəqiqələrdə Şayne Laveri buraxılmış toplardan birinin əvəzini çıxsa da, bu, komandamızın növbəti mərhələsinə yüksəlməsinə mane olmayıb. Beləliklə, “Qarabağ” iki oyunun nəticəsinə görə (2:3, 2:1) UEFA Avropa Liqasının qrup mərhələsinə vəsiqə qazanıb. Xatırladaq ki, “Qarabağ” beşinci dəfə Avropa Liqasının qrup mərhələsinə yüksəlib.

Düzəliş

29 avqust 2019-cu il tarixdə Dövlət Məşğulluq Xidmətinin “Azərbaycan” qəzetində dərc edilmiş açıq tender elanındakı: *“iştirak haqqı LOT-2 20 (iyirmi) manat”*, axırdan 3-cü, 4-cü abzaslar isə belə oxunmalıdır: *“...İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 25 sentyabr 2019-cu il tarixdə saat 17:00-dək. Tender təklifi və bank təminatını isə 02 oktyabr 2019-cu il saat 15:00-dək Portal vasitəsilə təqdim etməlidirlər.*

*İddiaçıların təklifləri 02 oktyabr 2019-cu il saat 16:00-da açılacaqdır”.*

*Tender komissiyası*

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Qeydiyyat və Notariat Baş İdarəsinin kollektivi Gülüş Abiyevaya atası

**ƏLƏSGƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9004
Sifariş 2812
Qiyməti 40 qəpik